www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 oktyabr 2025-ci il Cümə axşamı № 192 (8802) Qiyməti 60 qəpik

**Xəbər**

## Əsgər getməyə hazırlaşanların nəzərinə! - yenilik var

yazısı səh.11-də

**Gündəm**

### Zəngəzurun "qırmızı lenti" belə kəsiləcək - tarix bəlli, amma...



Prezident dəhlizin nə zaman açılacağını anons etdi, lakin daha tez də mümkündür...

yazısı səh.8-də

### Sülh göylərdən başlayır: AZAL-ın təyyarəsi İrəvanda

yazısı səh.3-də

### Revanşistlərin müharibə xofu - "Bakının hücumu..."

yazısı səh.6-da

### Tramp-Putin görüşü olmayacaq - müharibəyə davam?

yazısı səh.7-də

### Daha bir müttəfiqi Putindən ayrılmaq fikrinə düşüb

yazısı səh.5-də

### Bölgənin zəif "bəndi" - Rusiya Ermənistanı ram edəsə...

yazısı səh.9-da

### Moskva məhkəməsindən irqçi qərar - Bakıdan sərt təpki

yazısı səh.12-də

### Gəncədə saxta içkilər aşkarlandı

yazısı səh.2-də

### Süni intellektə inzibati qadağa - Azərbaycanda da olacaqmı?

yazısı səh.15-də

### Deputatdan valideynlərə və müəllimlərə mühüm çağırış

yazısı səh.11-də

### Mərkəzi Bank makroiqtisadi proqnozlarını yenilədi: dəyişiklik nədən qaynaqlanır?

yazısı səh.10-da

# AZƏRBAYCAN ERMƏNİSTANA ÇÖRƏK VERƏCƏK - BAKIDAN TARİXİ JEST

Vaşinqton anlaşmasından sonra İrəvan blokadadan çıxır; Qazaxıstan taxılı bu ölkəyə belə daşınacaq; yekun sülh sənədinədək edə biləcəyimiz başqa yaxşılıqlar...




yazısı səh.9-da

# Ramiz Mehdiyevin şərti həbsinin 10-cu günü

Üç vəkili olan "boz kardinal"ın cinayət dosyesində daha nələr var? Apelyasiya şikayətindən gözləntilər

yazısı səh.4-də



### Bakıdakı hərbi paradı o aparacaq? - Şəmistan Əlizamanlıdan reaksiya

yazısı səh.13-də



### Xamneyi Tramp haqda elə sözlər dedi ki...

yazısı səh.6-da



Fərid Museyibov

### Onkoloqdan SOS! "Spirt xərçəng yarada bilər, əgər..."

yazısı səh.15-də



## Prezident onu “İstiqlal” ordeni ilə təltif etdi

**Yaqub Abdulla oğlu Eyyubov “İstiqlal” ordeni ilə təltif edilib.**

Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev bu barədə sərəncam imzalayıb. O, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında böyük xidmətlərinə görə ordenlə təltif edilib.

## Sabiq qərargah rəisi azadlığa çıxdı

**Ötən il külli miqdarda rüşvət ittihamı ilə 4 illik həbsə məhkum edilmiş N saylı hərbi-hissənin sabiq qərargah rəisi Vüsal Əliyev azadlığa buxarılıb. Qafqazinfo.az xəbər verir ki, yerli məhkəmə belə qərar qəbul edib.**

Məhkum kapitanın cəza müddətinin yarıdan çoxunu çəkməsi və cəzaçəkmə müəssisəsinin müsbət rəyi nəzərə alınıb. Yeni qərarla Vüsal Əliyevin qalan 1 il 6 aylıq cəzası şərti hesab edilib. O, cəzaçəkmə müəssisəsindən vaxtından əvvəl azad edilib.

V.Əliyev bir neçə hərbi qulluqçudan külli miqdarda rüşvət almaqda təqsirli bilinib. Ona yumşaldıcı hallar nəzərə alınaraq sanksiyada nəzərdə tutulan həddən aşağı cəza verilib.

## 87 yaşlı moped sürücüsü qəzada öldü

**Bakıda avtomobillə moped toqquşub. Modern.az xəbər verir ki, 1991-ci il təvəllüdlü Eldar Həmzətqulu oğlu Səttarovun idarə etdiyi “Toyota Aqua” markalı avtomobillə 1938-ci il təvəllüdü Hacı Əmir oğlu Ağayevin idarə etdiyi mopedlə toqquşub. Nəticədə 87 yaşlı kişi ölüb. Faktla bağlı cinayət işi başlanılaraq istintaq aparılır.**

## Qızıl bahalaşmağa davam edəcək

**Mərkəzi Bankın proqnozu göstərir ki, qızılın qiyməti artmağa davam edəcək. Mərkəzi Bankın sədri Taleh Kazımov mətbuat konfransı zamanı deyib. O qeyd edib ki, son illərdə qlobal iqtisadiyyatda baş verən qeyri-müəyyənlik nəzərə alınarsa, qızılın qiymətinin artması gözlənilən faktordur:**

“Növbəti ildə də bu qeyri-müəyyənliklər aradan qaldırılmayacaq. Əks hal da mümkündür - son iki ildə qızılın artım faizi kifayət qədər yüksək olub, lakin ola bilər ki, 2-3 faiz azalma, volatillik ola bilər. Biz bunu Neft Fondu ilə birbaşa müzakirə etməmişik, lakin baxışımız ondan ibarətdir ki, artım davam edəcək. Bu ola bilər ki, eyni sürətlə olmasın”.



## Bu gün yağış yağacaq

**Azərbaycanda oktyabrın 23-də yağışlı keçəcəyi gözlənilir. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə çiskinli yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 13-16, gündüz 19-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunubndan 762 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85%, gündüz 60-70% təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-14, gündüz 19-23, dağlarda gecə 3-8, gündüz 10-15 dərəcə isti olacaq.

# Azərbaycandan turist axını azalıb



**Bu ilin yanvar-sentyabr aylarında xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,6 faiz azalaraq 1605,0 min nəfər olub. Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib.**

Məlumata görə, bu dövrdə Gürcüstana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 22,0 faiz, İrana gedənlərin sayı 2,6 faiz artıb, Rusiya Federasiyasına gedənlərin sayı 30,8 faiz, Türkiyəyə gedənlərin sayı isə 2,4 faiz azalıb. Azərbaycan Respublikası vətəndaşlarının 42,2 faizi Türkiyəyə, 14,6 faizi Rusiya Federasiyasına, 10,8 faizi Gürcüstana, 8,9 faizi İrana, 23,5 faizi digər ölkələrə səfər etmişdir. Gedənlərin 63,6 faizini kişilər, 36,4 faizini qadınlar təşkil edib.

2025-ci ilin yanvar-sentyabr aylarında xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 70,6 faizi hava, 27,5 faizi dəmir yolu və avtomobil, 1,9 faizi isə dəniz nəqliyyatından istifadə edib.

## Bakıda 10 metro stansiyası istifadəyə veriləcək

**“Cari ildə təsdiqlənmiş dövlət proqramı çərçivəsində ictimai nəqliyyat xidmətlərinin əlçatanlığının artırılması nəzərdə tutulub”.**

Modern.az xəbər verir ki, bunu Milli Məclisdə keçirilən “Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik” mövzusunda elmi-praktik konfransda çıxışı zamanı rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov deyib.

“Eyni zamanda metro infrastrukturunun inkişafından tutmuş təqribən 300-ə yaxın vaqonun alınması, 10 yeni stansiyanın inşası (bu yalnız 2030-cu ilə qədər icra ediləcək), eləcə də dəmir yolu sahəsində tədbirlər görülür. Bu yaxınlarda Gəncədə, bəlkə də Azərbaycanda ilk dəfə olaraq, bütöv bir şəhərdə nəqliyyat infrastrukturunu yeniləmişik. Yaxın aylarda, il sonuna qədər Naxçıvanda da analoji tədbirin yekunlaşdırılması planlaşdırılır. Qarabağla bağlı bütün şəhərlərdə infrastrukturun qurulması nəzərdə tutulur”, - deyə nazir müavini bildirib.

## İbadoğlunun qardaşına ittiham aktı elan edildi

**Baş Prokurorluğun İstintaq İdarəsində qeyri-hökumət təşkilatları nümayəndələrindən Qalib Bayramovun (Qalib Toğrul) cinayət işi üzrə məhkəmə istintaqı başlayıb.**

“Unikal”ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən ilk baxış iclasında prokuror təqsirləndirilən QHT rəhbərinə ittiham aktını elan edib.

Növbəti proses noyabrın 5-nə təyin edilib. Qeyd edək ki, QHT nümayəndələri vəzifə səlahiyyətlərindən sui-istifadə, cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakın leqallaşdırılması, qanunsuz sahibkarlıq kimi cinayətlərdə ittiham olunurlar.

Onu da qeyd edək ki, Qalib Toğrul bir neçə ay əvvəl ev dustaqlığına buraxılan iqtisadçı Qubad İbadoğlunun qardaşıdır.

## Rusiya 4 nəfəri Azərbaycana verdi

**Beynəlxalq axtarışa verilmiş daha 4 şəxs ölkəmizə ekstradisiya edilib. Bu barədə Baş Prokurorluğun Mətbuat Xidməti məlumat yayıb.**

Məlumata görə, "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 07.10.2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşları Alıyev Hafiz Salman oğlu, Əliyev Nəriman Elşad oğlu, Nuriyev Kazım Ağaqulu oğlu və Həsənov Emin Vasif oğlunun ekstradisiyaları haqqında Baş Prokurorluğun vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Həmin şəxslərin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarlar qəbul edilib və istintaqdan qaçıb gizləndiklərinə görə onlar beynəlxalq axtarışa verilliblər.

Qeyd olunan şəxslər Rusiya Federasiyasının ərazisində saxlanılaraq Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətiriliblər.

## Gəncədə saxta içkilər aşkarlandı

**Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları Gəncə şəhəri, H.Əliyev prospekti, ev 73 ünvanında fəaliyyət göstərən topdansatış mağazasında yoxlama keçirib. AQTA məlumat yayıb.**

Bildirilib ki, mağaza fiziki şəxs Abdullayev Pərviz Təvəkkül oğluna məxsus olub. Baxış zamanı satış sahəsində aşkar saxtalaşdırma əlamətləri olan “Organic Rosinka” əmtəə nişanlı 98 ədəd 0.7 litrlik, 112 ədəd 0.5 litrlik alkoqollu içki aşkarlanıb. Belə ki, içkilərin başlıq hissəsinin təkrar bərkidildiyi, istehsal tarixləri və istehsalçı barədə məlumatların qeyd olunmadığı, saxta VÖEN göstərildiyi, müşayiətedici sənədlərin olmadığı müəyyən edilib. Məhsullardan nümunələr götürülərək laborator müayinələrə cəlb olunub. Faktla bağlı sahibkar barəsində qanunvericiliyə uyğun tədbirlər görülüb. Araşdırmalar davam etdirilir.

## Oğlu qəzada, özü morqun qarşısında öldü

**Əlində vurulan piyadanın atası morqun qarşısında infarktdan ölüb. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Ələt qəsəbəsində ölən piyadalardan birinin, Salyan sakini, 45 yaşlı Bayramlı Anarın atası Salyan rayon sakini, 1956-cı il təvəllüdlü Bayramov Həsənqulu Qaradağ morqunun qarşısında infarkt keçirərək ölüb. Qeyd edək ki, ötən gün Ələt qəsəbəsində “Mercedes” markalı avtomobil yolu keçən Salyan sakinlərini vuraraq öldürüb.**

## Bakıda vəkilin evi qarət olundu

**Tanınmış vəkil Bəhruz Bayramovun mənzili qarət olunub. Bu barədə Gununsesi.info-ya vəkilin özü deyib. Bəhruz Bayramovun sözlərinə görə, Bakının Binəqədi Rayonu Rəsulzadə qəsəbəsindəki həyət evinə girən oğrular mənzildən əsas əşyaları aparıblar: “Televizor, xalçalar, kombi, qab-qabacaqlar, bahalı suvenerlər və sair məişət əşyalarını aparıblar. Mənə ən çox təsir edən mərhum anamın yadigarı olan qədim xalça idi”.**

Bəhruz Bayramov bildirib ki, hadisə yerinə polis çağırılıb: “İki saata yaxın araşdırma apardılar. Ekspert də gəlmişdi, əl-ayaq izləri götürdülər. İstintaq hərəkətləri apardılar. İnanıram ki, polis bu cinayətin üstünü açacaq”.

YENİ MÜSAVAT
N 192 (8802) 23 oktyabr 2025

# Sülh göylərdən başlayır: AZAL-ın təyyarəsi Ermənistan paytaxtında

**Azərbaycan və Ermənistan arasında başlanmış sülh danışıqları çərçivəsində qeyri-hökumət təşkilatlarının dialoqu intensivləşməkdədir.**




Dünən göyərtəsində ölkəmizin QHT nümayəndələrini daşıyan AZAL-a məxsus təyyarə İrəvanın Zvartnots hava limanına enib.

Rəsmi qurumlar hələlik bu uçuşla bağlı açıqlama verməsələr də, Ermənistan KİV-ləri və bir sıra beynəlxalq mənbələr bu səfərin Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətlərinin nümayəndələri arasında keçirilən "aylıq dialoq görüşü" ilə bağlı olduğunu yazır.

Verilən məlumata görə, İrəvanda iki ölkədən gələn ekspertlərin, ictimai xadimlərin və QHT rəhbərlərinin iştirakı ilə "Sülh gündəliyi" adlı dəyirmi masa keçirilib.

Müzakirələrin əsas mövzusu avqustun 8-də Vaşinqtonda keçirilmiş üçtərəfli görüşün nəticələrinə əsaslanan regional sülh və əməkdaşlıq gündəliyi olub, iki xalq arasında etimadın möhkəmləndirilməsi, Cənubi Qafqazda iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, nəqliyyat-kommunikasiya xətlərinin açılması, eləcə də vətəndaş cəmiyyətləri arasında birbaşa və uzunmüddətli əlaqələrin qurulması məsələləri yer alıb.

Qeyd edək ki, analoji görüş ötən ayın 22-də İrəvanda keçirilib. Həmin görüşdə Azərbaycan və Türkiyə nümayəndələri NATO Parlament Assambleyasının "Rouse-Rot" proqramı çərçivəsində təşkil olunan 108-ci seminarın iştirakçıları sırasında olublar.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, AZAL-ın təyyarəsnin Ermənistan hava məkanına enməsi Cənubi Qafqazda yaranmaqda olan yeni reallıqların təzahürüdür: "Əgər bu səfər vətəndaş cəmiyyətləri arasında etimad mühitinin formalaşmasına xidmət edirsə, deməli, proses doğru istiqamətdə inkişaf edir. Düşmənçilik stereotiplərinin qırılması, qarşılıqlı ünsiyyətin bərpası regional sabitlik üçün mühüm şərtdir".

Ç.Qənizadə hesab edir ki, belə addımlar dövlət səviyyəsində aparılan sülh danışıqlarına paralel olaraq cəmiyyətlər arasında münasibətləri normallaşdırmağa imkan verir.

**Azad Vətən Partiyasının sədri Akif Nağının sözlərinə görə, bu cür görüşlər ümumi bir tendensiyadır və regionda müəyyən yumşalma prosesi gedir:** "Ermənistanın Azərbaycana qarşı törətdiklərini unudub erməni nümayəndələrlə eyni masada əyləşmək və nəyisə müzakirə etmək çətindir. Bu ölkə ilə istənilən prosesdə ehtiyatlı olmaq lazımdır. Doğrudur, dünyada gedən proseslər, Azərbaycan dövlətinin maraqları, dövlət başçısının siyasəti nəzərə alınmalıdır. Lakin bunlar tam ehtiyatla həyata keçirilməlidir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun sözlərinə görə, belə təmaslara ehtiyac var:** "90-cı illərdə belə görüşlərdə mən də fəal iştirak etmişəm. 2010-cu ilə qədər bu proseslər davam etdi. Erməni politoloq və jurnalistlərlə müxtəlif ölkələrdə ayrı-ayrı konfranslarda görüşlər keçirirdi. Hətta belə görüşlər iki dəfə Ermənistanda beynəlxalq təşkilatların xətti ilə baş tutmuşdu. Görüşlərdə ciddi mübahisələrimiz olurdu. O zaman işğal dövrü olduğuna görə Ermənistan tərəfi biz deyənləri qəbul etmirdil və buna görə də görüşlər nəticəsiz başa çatırdı.

İndi isə reallıq dəyişib. Azərbaycan ərazi bütövlüyünü təmin edib. Erməni cəmiyyətinin bir hissəsi artıq bu reallığı qəbul edib. Ona görə də hesab edirəm ki, indiki dialoq daha çox sülhə və əməkdaşlığa xidmət edəcək. Eyni zamanda rəsmi səviyyədə qərarlar verilib, yüklər ikitərəfli daşınacaq. Bütün bunlar müsbət atmosfer yaradır".

**Politoloqun fikrincə, belə görüşlərdə ermənilərə izah etmək lazımdır ki, Azərbaycanla düşmənçilik, işğal erməni cəmiyyətinə müsbət heç nə verməyib:** "Bu cür görüşlərdə belə dərin mövzular müzakirə edilməlidir. Sülh sazişinin bir neçə addımlığındayıq. Sülh bağlanandan və kommunikasiyalar açılandan sonra ermənilərlə təmaslar adiləşəcək, qarşılıqlı gediş-gəliş olacaq. Bölgədə sülh atmosferinin yaradılması baxımından bu təmaslar vacibdir".

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

## Simonyan: "Katolikos kimdir, mən belə adam tanımıram"

**"Katolikos kimdir? Mən belə bir adam tanımıram. O, öz andını pozub".**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu sözləri oktyabrın 22-də jurnalistlərlə söhbətində Ermənistan parlamentinin sədri Alen Simonyan deyib.

Jurnalistlər Simonyandan Eçmiədzin kilsəsinin keşiş Aram Asatryanı ruhanilikdən azad etdiyini soruşublar. Onların sözlərinə görə, buna görə də onun Ermənistan Apostol Kilsəsi adından ayin keçirməyə ixtiyarı yoxdur.

Simonyan cavabında bildirib: "Bu, qanunsuz qurumdur. Ktriç Nersisyan (Katolikos II Qaregin nəzərdə tutulur) başa düşməlidir ki, necə deyərlər, artıq bizim qapılarımıza yaxınlaşırlar, qoy vəziyyəti son həddə çatdırmasın... Onsuz da gedəcək".

Simonyan həmçinin əlavə edib ki, Ovanavank monastırında keçiriləcək ayində - yeni baş nazir Nikol Paşinyanın iştirak edəcəyi və ruhanilikdən azad edilən Asatryanın idarə edəcəyi mərasimdə iştirak etməyəcək.

❑ **Musavat.com**

## Almaniyada yeni ştirlitslər? - AfD-yə Rusiya ilə bağlı ittiham

**Almaniyada ultra-sağçı "Almaniya üçün Alternativ" (AfD) partiyasının fəaliyyətində Rusiyanın xeyrinə casusluq əlamətləri aşkar edilib.**

Musavat.com xəbər verir ki, bu barədə Türingiya federal əyalətinin daxili işlər naziri Georq Mayer bəyan edib.

Onun narahatlığını Bundestaqın xüsusi xidmət orqanlarına nəzarət komitəsinin rəhbəri Mark Henrixmann və sədr müavini Konstantin fon Notts da bölüşüblər.

Mayerin sözlərinə görə, AfD fraksiyası parlamentdə "kritik infrastruktur" barədə məlumat toplamaq üçün parlament sorğularından sui-istifadə edir. Bu sorğular Almaniyanın nəqliyyat şəbəkələri, enerji təminatı, su təchizatı və rəqəmsal sistemləri barədə məlumatları əhatə edir.

Nazir qeyd edib ki, AfD həmçinin polis informasiya texnologiyalarına, pilotsuz uçuş aparatlarına qarşı mübarizə avadanlıqlarına, eləcə də mülki müdafiə və səhiyyə xidmətlərinin təchizatına xüsusi maraq göstərir.

Mayerin hesablamalarına görə, yalnız Türingiya əyalətində partiya son 12 ayda bu mövzuda 47 parlament sorğusu göndərib. Federal səviyyədə də bu sorğuların "çoxluq təşkil etdiyi" və onların sayının və detallılıq səviyyəsinin durmadan artdığı bildirilir.

"Belə təəssürat yaranır ki, AfD bu sorğularla, sadəcə, Kremlin sifarişini yerinə yetirir", - deyə Georq Mayer bildirib.

❑ **Musavat.com**

## Bakının inqilabi yaxşılığı, ermənin sonrakı ağlı - Qarabağa qayıdış...



**Azərbaycan və Ermənistan arasında qarşılıqlı etimad tədbirlərinin sayı əhəmiyyətli dərəcədə artıb. Bakının qonşu ölkəyə yük tranzitinə qoyulan məhdudiyyətləri götürməsi bu yöndə ən mühüm yenilik sayıla bilər.**

Diqqətçəkicidir ki, xoşməramlı addımımızı İrəvan rəsmiləri dərhal və yüksək qiymətləndiriblər. Baş nazir Nikol Paşinyan Prezident İlham Əliyevə təşəkkür edib. Eyni zamanda o, Ermənistanın da Azərbaycandan Türkiyəyə və əks istiqamətdə tranzit yüklərin daşınması üçün yolları açmağa hazır olduğunu bildirib. Həmçinin yaxın vaxtlarda Azərbaycan-Ermənistan-Türkiyə boru kəməri və elektrik xətləri çəkiləcəyini deyib.

Eləcə də digər yüksək cinli erməni rəsmilər Azərbaycana minnətdarlıq dolu açıqlamalar veriblər. Parlament sədrinin müavini Ruben Rubinyan isə yeniliyi "inqilabi addım" adlandırıb. Eyni gündə AZAL təyyarəsi İrəvana eniş edib. İki ölkə ictimaiyyət nümayəndələri arasında görüşün iştirakçılarını qonşu ölkəyə aparıb...

Beləcə, avqustun 8-də Ağ Evdə Azərbaycan, ABŞ və Ermənistan liderləri arasında imzalanmış Birgə Bəyannamənin işlək vəziyyətdə olduğunu söyləmək olar. Hansı sənəddə ki, tərəflər arasında qarşılıqlı etimad mühitinin yaradılması və yekun sülh sənədinin imzalanması yönündə gərəkən addımların atılması zərurəti "qırmızı xətt" kimi keçir.

Əlbəttə ki, bu, hər şeydən öncə qarşı tərəfə, erməni xalqına lazımdır. Çünki blokada vəziyyətində, Rusiyadan total iqtisadi-energetik və logistik asılılıqda olan odur. Bakı isə son xoşməramlı addımları ilə İrəvana bir daha aydın mesaj ötürür ki, sülh müqaviləsi imzalanarsa, əlaqələr düzələrsə, Rusiyadan asılılıq minimuma düşə, hətta aradan qalxa bilər. Məntiqlə də əgər sənəd yalnız ratifikasiya olunmaqla Ermənistan belə əlverişli güzəştlər əldə edə bilibsə, gör diplomatik münasibətlər qurulandan sonra qonşu Azərbaycan və Türkiyə hesabına hansı üstünlükləri qazana bilər...

Söz yox ki, Bakının insanpərvərliyi Türkdən "xoxan" düzəldən, Türkə nifrəti körükləyən radikal-revanşist çevrələrin və onların arxasındakı çevrələrin təbliğati "arqumentləri"ni zəiflədəcək. Paşinyan və komandasının əlini isə ciddi şəkildə gücləndirəcək. Bu da kritik parlament seçkiləri öncəsi çox vacibdir. Yəni müharibə, konflikt illər uzunu erməni xalqına yalnız ağrı-acı, məhrumiyyət gətiribsə, sülh və barışıq rifah, əmin-amanlıq, inkişaf bəxş edə bilər. Fərq ortada.

Proses başlayıb və sürətlənməkdədir, yetər ki, erməni cəmiyyəti Paşinyanın qonşularla barışıq siyasətini, "Real Ermənistan" gündəliyini axıradək müdafiə eləsin. Bunun üçün hakim partiyanı bir daha seçkilərdə qalib eləməyə və referendumda konstitusiya dəyişikliyini dəstəkləməyə əşhədü-ehtiyac var. Bu, erməni toplumu üçün artıq ölüm-olum məsələsidir. Əks halda, seçkilərdə uduzan onun özü olacaq, hakim partiya yox...

Yeri gəlmişkən, əgər zamanına bu ölkənin başında avantürist-faşistlər yox, strateji düşüncə qabiliyyətinə malik ağılı adamlar dursaydı, indi Bakı-Ceyhan neft, Bakı-Ərzurum qaz kəmərləri, Bakı-Qars dəmiryolu Ermənistandan keçir, İrəvan böyük tranzit gəlirləri əldə eləməklə yanaşı, həm də ucuz neft-qazla təmin olunurdu. Qarabağda yüksək muxtariyyət statusu alacaq erməni əhali də təbii ki, öz yerlərində qalacaqdı.

Olmadı. Yalançı "hərbi qələbə"nin eyforiyası imkan vermədi. "Qarabağı boruya dəyişmirik" deyib göylə getdilər. Sonrası məlum. Barı zavallı xalq sonuncu tarixi şansı qaçırmasın...

❑ **Z.SƏFƏROĞLU**

YENİ MÜSAVAT
N 192 (8802) 23 oktyabr 2025

# Ramiz Mehdiyevin şərti həbsinin 10-cü günü

## "Boz kardinal"ın cinayət dosyesində daha nələr var?

**Sabah, oktyabrın 24-də Ramiz Mehdiyevin istintaqa cəlb olunmasının 10-cü günü tamamlanır. O, xüsusilə ağır cinayətlərdə ittiham olunur.**

Ev dustağı olan Ramiz Mehdiyevin hazırda 3 vəkili var. Onun müdafiəçiləri Mehdiyev barəsində hələ ev dustaqlığı qətimkan tədbiri seçilməzdən əvvəl qəbul edilmiş bir sıra qərarlardan apelyasiya şikayəti veriblər.

"Qafqazinfo" yazıb ki, bu məqsədlə onlar Dövlət Təhlükəsizliyi Xidmətindəki (DTX) cinayət işinin materialları ilə, DTX-nın vəsatəti əsasında Səbayel Rayon Məhkəməsi tərəfindən çıxarılmış qərarlarla tanış olublar.

Həmin sənədlər arasında Ramiz Mehdiyevin ətrafında kompleks əməliyyat-texniki tədbirlərin keçirilməsi ilə bağlı Səbayel Rayon Məhkəməsinin 13 avqust 2025-ci il tarixli qərarı da var. Bu qərarın "boz kardinal"ın ifşa olunmasında xüsusi rol oynadığı hesab olunur. Belə ki, rabitə kanalları ilə ötürülən məlumatların ələ keçirilməsi, "Şərq-Qərb" nəşriyyatı və daha sonra digər ünvanlarda aparılan axtarış tədbirləri məhz bu qərar əsasında həyata keçirilib.

Bu arada Ramiz Mehdiyevin ailəsinə məxsus bankın taleyi də müzakirə mövzusudur. Maliyyə hesabatlarına görə, "Bank BTB" ASC bu ilin yanvar-sentyabr aylarını 641 min manat zərərlə başa vurub. Məlum olub ki, bu zərər ötən ilin eyni dövrünə nisbətən 30% çoxdur.

Sentyabrda bank xidmətlərindən istifadə sahəsində müştəri şikayətləri üzrə isə "Bank BTB" ASC 5,46 şikayət indeksi ilə ən çox şikayət edilən banklardan biri kimi qırmızı zolaqda qərarlaşıb. Belə olan halda "Bank BTB"nin bağlana biləcəyi, lisenziyasının ləğvi barədə müzakirələr aparılır. Demokrat.az-ın məlumatına görə, Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov oktyabrın 22-də bankın fəaliyyəti barədə danışıb. O qeyd edib ki, son illər aparılan nəzarət tədbirləri çərçivəsində bankın dayanıqlılığı möhkəmlənib. "Bank bütün prudensial tələblərə riayət edir. Bankdakı əmanətləri 96,3%-i sigortalıdır" - AMB sədri əlavə edib.



Xatırladaq ki, "Bank BTB" 2010-cu ildə yaradılıb. Onun nizamnamə kapitalı 71,45 milyon manatdır. Bankın səhmlərinin 76,74%-i Nigar Mehdiyevaya, 17,68%-i Rza Sadıqə (Müşahidə Şurasının sədri), 5,58%-i isə Tükəzban Mahmudovaya məxsusdur. Nigar Mehdiyeva Ramiz Mehdiyevin gəlinidir.

Ramiz Mehdiyevin Azərbaycan Tibb Universitetinin (ATU) Onkologiya Klinikasında müalicə işləri üzrə direktor müavini və II cərrahiyyə şöbəsinin müdiri, bölmə rəhbəri olan gəlini Nigar Mehdiyevanın işə çıxmaması ilə bağlı məlumat yayılıb. Manset.az məsələni dəqiqləşdirmək üçün Nigar Mehdiyeva ilə əlaqə saxlayıb. O, hazırda iş başında olduğunu bildirib: "Mən işdəyəm. Hazırda ictasdayam. Bu məsələlərə şərh vermək istəmirəm", - deyə Nigar Mehdiyeva qeyd edib.

Ötən günlər ərzində Ramiz Mehdiyevin sabiq nəqliyyat naziri Elton Məmmədovla Ukraynaya qədər uzanan geniş biznes əlaqələri üzə çıxıb. Demokrat.az saytının dərc etdiyi yazıda Ramiz Mehdiyevin Elmira Axundovanı Ukraynaya səfir göndərməsindən bəhs olunur.

**Sitat:** "Bu hadisədən qısa vaxt sonra isə Azərbaycanın Ukraynadakı səfiri geri çağırılmış və onun yerinə Ramiz Mehdiyevin yaxın adamı olan Xalq yazıçısı Elmira Axundova səfir təyin olunmuşdur. Elmira Axundova Ukraynaya səfir göndəriləndən sonra Ramiz Mehdiyevin Ukrayna və Moldovadakı biznes şəbəkəsi daha da "çiçəklənmə"yə başlayıb".

Elmira Axundova isə "adım əsassız yerə Ramiz Mehdiyevlə yanaşı çəkilir" şəklində reaksiya verib, Ramiz Mehdiyevlə əlaqələrini təkzib etməyə çalışıb.

Bu günlər ərzində icra başçılarının Ramiz Mehdiyevə olduqca bahalı bəxşişləri ilə bağlı məlumatlar da ictimailəşib. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun və daha bir neçə icra başçısının Mehdiyevə Bakı şəhərində villa tikməsi və mənzil bağışlaması üzə çıxıb.

Gununsesi.info yazır ki, Ramiz Mehdiyevin əmlakları təkcə Bakıda deyilmiş. Əhalinin sıx məskunlaşdığı Göyçayda 40 hektarlıq, hündür hasarla əhatələnmiş bir bağ var. Rayonun Hüngütlü kəndi ərazisindəki bu bağ keçmiş nəqliyyat naziri Ziya Məmmədovun tapşırığı ilə bir vaxtlar Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov tərəfindən inşa olunub. Məlum olub ki, evin inşa olunduğu və əhatələndiyi torpaq camaatın əlindən alınaraq Ramiz Mehdiyevə hədiyyə edilib. Sakinlər deyir ki, Ziya Məmmədovun qardaşı İldırım Məmmədovun bilavasitə başçılığı ilə zorakı üsullarla, hədə-qorxu gəlinməklə əhalidən dəyər-dəyməzinə müsadirə olunub. Camaatın pay torpaqları birləşdirilərək əzəmətli imarətin tikilməsində sözün əsl mənasında yerli sakinlərin qanı sorulub. 2012-2014-cü illərdə Mənsur Məmmədov bu bağın salınması, ətrafına hasar çəkilməsi, içərisində Şərq hökmdarlarının sarayına bənzədilən imarətin tikilməsi üçün sahibkarlardan belə pul toplayıb".

Yazıda daha sonra bildirilir ki, R.Mehdiyevin həyat yoldaşı Qalina Mehdiyeva tez-tez helikopterlə bağa gəlirmiş və onun hər gəlişində Mənsur Məmmədov əmrə müntəzir durur, ətrafında saatlarla dolanıb qalırmış.

Xatırladaq ki, Səbayel Rayon Məhkəməsi Ramiz Mehdiyev barəsində 4 aylıq ev dustaqlığı qətimkan tədbiri seçib. Ona qarşı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 278-ci - hakimiyyəti zorla ələ keçirmə və ya zorla saxlama; 274-cü dövlətə xəyanət və 193-cü - cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma(yuyulma) maddələri ilə ittiham irəli sürülüb.

Qeyd edək ki, Ramiz Mehdiyev 1995-2019-cu illərdə Prezident Administrasiyasının rəhbəri, 2019-2022-ci illərdə isə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Dar gün üçün yığılan milyard - akademikin 11 lüks avtomobili varmış

**Əlində böyük hakimiyyət və səlahiyyət olduğu təqdirdə intəhasız sərvət toplamayanlara az rast gəlmək olur. Dünyaya gəlib-getmiş hökmdarların, liderlərin içində nə qədər beləsini tanıyırıq? Biri İsrailin qurucusu David Ben Qurion, o biri də Uruqvayın sabiq prezidenti Xose Muxika. Sonra?**

**Xalid KAZIMLI**



Əlbəttə, axtarsaq, yenə bir neçə idealist və zahidanə həyat tərzi keçirən lider taparıq. Ancaq siyahı geniş olmayacaq - bu, şəksizdir.

Əvəzində tarixdə nə qədər desəniz, "dünya mənim" deyən fironlar, ton-ton qızıl-gümüş toplayan hökmdarlar, 1000-dən artıq zövcə, cariyə saxlayan padşahlar, sultanlar, krallar olub.

Barəsində yazılanları tam həqiqət hesab etsək, aydın olur ki, Ramiz Mehdiyev də o cür fironlardan biriymiş. O, hələ dövlətdə birinci şəxs olmayıb, de-yure dördüncü, de-fakto ikinci böyük vəzifəni tutub. Amma varidatı barədə açıqlanan bilgilərdə söhbət yeddi 0-lıq sərvətdən gedir. İlk rəqəmi isə qoy hüquq-mühafizə orqanları müəyyən etsin - 5-dirmi, 10-durmu...

Onun ev dustağı edilməsi barədə ilk xəbərin yayılmasından iki gün sonra mediada akademikin daşınmaz əmlaklarının bir qisminin siyahısı dərc olunmuşdu. Heyrətamiz idi. Əsas da ona görə ki, yeni pis-yaxşı fəlsəfə elmindən xəbərdar olan bir ahıl adam "dünya malının dünyada qalacağı" barədə heçmi təsəvvürə malik olmayıb?

İnsanın neçə evi, villası, iqamətgahı, bağı, torpaq sahəsi olar? Sonucda iki metr uzunu, bir metr eni və metryarım dərinliyi olan son mənzilə sığan insan bu qədər var-dövlət yığıb nə edə bilər?

Söhbətin belə yerində adətən deyirlər ki, adam sərvəti özündən ötrü yığmır, züryətləri üçün yığır, nə bilim, dar gün üçün toplayır, filan-bəsməkan.

Bu da havayı söhbətdir. Azərbaycan kimi ölkələrdə (100-dən artıq) acgözlüklə, irin-qanla, cinayət yoluyla toplanmış varidat nə adamın özünün dar gününə qalır, nə da nəvə-nəticəsinə qismət olur. Axırda yadlara çatır və adamın o sərvəti toplamaq üçün çəkdiyi zəhmət hədər gedir, qazandığı isə ah-nalə və əsrlərcə davam edən lənət olur.



Bu xüsusda yüzlərlə nümunə gətirmək olar. Milyonçuların dilənçi gününə düşmüş nəvələri haqqında söhbətlər əfsanə-filan deyil.

Budur, Mehdiyevə məxsus olduğu deyilən dəbdəbəli avtomobillərin siyahısı yayılıb. Bəlkə də siyahı tam deyil, bəlkə də bir az şişirdilib. Ancaq lüks avtomobillərin bütün göstəricilərinin və qiymətlərinin dəqiq göstərildiyi siyahının mötəbərliyinə şübhə etmək üçün əsas da yoxdur. Hiss olunur ki, siyahını işi bilən adamlar tərtib ediblər.

Mehdiyevin avtomobil parkında markası, modeli göstərilən avtomobillərin cəmi biri ucuzdur - 65 min manat. Əksəriyyəti "Mersedes-Bents" korporasiyasının ən lüks məhsulları olan avtomobillərin qiyməti 200 min manatdan başlayır. 400 min və 540 min manata olanı da var. Cəmi 11 avtomobildir.

Topasının qiyməti 3 milyon manata yaxın olan bu avtomobillərin hansı pullarla əldə edildiyi məsələsini qırağa qoyaq. Zatən, bunu hamı bilir. Bu qədər varidat maasla, halal biznes fəaliyyəti ilə başa gələn şey deyil. Biz ona diqqət edək ki, bir insan paralel olaraq 11 lüks avtomobilə necə ehtiyac duyur.

Bu da yığım vasitəsidirmi? Qızılı, brilyantı, daşınmaz əmlakları başa düşdük - dar gün üçündür. Bəs bu qədər avtomobil tədarük etmək hansı zərurətdən doğur? Bunlar güman ki, müəllimin "əsər"lərinin qonorarı ilə alınmayıb. Hədiyyəyə oxşayır. Kimlərsə alıb, öz işlərinin xətrinə bağışlayıblar. O da alıb, çoxsaylı mülklərindəki qarajlarda park edib.

İndi nə olacaq o qədər sərvətin axırı? Ya müsadirə olunacaq, ya da dəyər-dəyməzinə satlığa qoyulacaq. Hərçənd bir qismi "dədə mirası" kimi züryətlərə də qala bilər.

Məşhur norveçli səyyah Tur Heyerdalın başına gəlmiş olduğu iddia edilən bir pritça var. Deyirlər, adamyeyənlər qəbiləsində qonaq olan Heyerdal dünyadan təcrid olunmuş, tarixdən xəbərsiz tayfanın başçısına II dünya müharibəsində 50 milyon insanın öldürüldüyündən danışır. Qəbilə lideri təəccüblənir, deyir: "O qədər adamı yeməyəcəkdinizsə, niyə öldürürdünüz? Vəhşisiniz...".

İndi onun sözü olmasın, o qədər imarətlərdə yaşamayacaqdınızsa, o qədər avtomobili sürməyəcəkdinizsə, niyə alırdınız?

Filosof olan kəs marksizmin əsas prinsiplərini bilirdisə, maddi nemətlərin bərabər bölünməməsinin sosial ədalətsizlik olduğunu da bilməliydi.

YENİ MÜSAVAT
N 192 (8802) 23 oktyabr 2025

# Paşinyanın təşəkkürü, müxalifətin cığallığı, Ermənistan parlamentində gərginlik

## Azərbaycan Prezidentinin Astana bəyanatına Tiflisdən reaksiya verən Ermənistanın baş naziri Azərbaycanla barışığın detallarından danışdı; **ermənişünas alim:** "Müxtəlif revanşist ünsürlərin çığır-bağırdan başqa əllərindən heç nə gəlməyəcəyi açıq görünür"

**Prezident İlham Əliyevin Qazaxıstanın paytaxtında səsləndirdiyi bəyanat Ermənistanın gündəmini tamamilə dəyişib. Dövlət başçımızın Zəngəzur dəhlizinin reallaşdırılmasına yönəlik çağırışı, həmçinin Qazaxıstan taxılının Ermənistana daşınması üçün Azərbaycanın imkanlar yaratdığını elan etməsinə Ermənistanın baş naziri Nikol Paşinyanın Tiflisdən səsləndirdiyi təşəkkür cavabı və qarşısına qoyulan "ev tapşırıqları"nın həll etmək istəyində olduğunu nümayiş etdirməsi fonunda revanşistlər əməlli-başlı qeyzləniblər.**



N.Paşinyan Gürcüstanda keçirilən "İpək yolu" konfransında deyib ki, ölkəsi siyasi baxımdan Naxçıvan Muxtar Respublikasından Azərbaycanın materik hissəsinə və geriyə Ermənistan ərazisindən tranziti təmin etməyə hazırdır, lakin texniki cəhətdən infrastrukturun olmaması səbəbindən hələ bunu reallaşdıra bilmirlər.

**"Yeni Müsavat" erməni mediasına istinadən bildirir ki, Ermənistanın baş naziri daha sonra deyib:** "Siyasi baxımdan biz Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında, eləcə də Türkiyə ilə Azərbaycanın materik hissəsi arasında dəmir yolu tranzitini təmin etməyə də hazırıq, lakin bu hissələrdə dəmir yolu təmir və ya yenidənqurma tələb edir. Əminəm ki, iki-üç il ərzində texniki məsələlər öz həllini tapacaq".

**Erməni baş nazir daha sonra sensasiya sayılacaq açıqlama da verib**: "Yaxın vaxtlarda Ermənistan ərazisindən boru kəmərləri və Azərbaycan-Ermənistan-Türkiyə elektrik xətləri çəkiləcək. Artıq qeyd etdiyim kimi, dəmir yolu və avtomobil yolları da qurulacaq. Bütün bunlar TRIPP proqramı çərçivəsində müzakirə olunur. Biz Türkiyə və Azərbaycanla da müvafiq danışıqlar aparırıq. Biz də bu razılaşmaların həyata keçirilməsi üçün ABŞ ilə işləyirik".

**N.Paşinyan qeyd edib ki, bütün bunların həyata keçirilməsinin ən mühüm şərti Vaşinqton sammiti nəticəsində Ermənistanla Azərbaycan arasında yaradılmış sülhdür:** "Biz hazırda Azərbaycanla bu barışığı daha institutsionallaşdırmaq üçün çalışırıq. Biz Vaşinqtonda paraflanmış Ermənistan və Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin imzalanması və ratifikasiyası üzərində işləyirik. Eyni zamanda bütün nəqliyyat əlaqələri mərhələli şəkildə açılaraq regionumuza tarixi dəyişikliklər gətirəcək. Bölgəmizdəki nəqliyyat layihələrinin bir-biri ilə rəqabət aparması ilə bağlı bəzi açıqlamalar eşitmişəm. Mən bu fikirlə qətiyyən razı deyiləm, çünki bizim regionda nəqliyyat marşrutları bir-birini tamamlayır, Cənubi Qafqazın tranzit potensialını artırır. Vaşinqton bəyannaməsinin üçüncü bəndində deyilir ki, Fars körfəzi-Qara dəniz dəmir yolu da açılacaq və bu, təkcə Ermənistanın deyil, həm də Gürcüstan və Azərbaycanın potensialını xeyli artıracaq. Ermənistanla Türkiyə arasında dialoq, Ermənistanla Azərbaycan arasında yaradılmış sülh, TRİPP layihəsi, Gürcüstan və İranın region ölkələri ilə mehriban qonşuluq münasibətləri Cənubi Qafqazı Şimal-Cənub və Şərq-Qərb istiqamətlərində ən cəlbedici tranzit marşrutuna çevirəcək. Bu, o deməkdir ki, regionumuzdakı bütün ölkələrin infrastrukturu bu artan axınları idarə etmək üçün kifayət qədər olmasa da, sıxılacaq. Hazırda Cənubi Qafqaza yönəlmiş böyük beynəlxalq maraq bizim, yeni Ermənistanın sərmayə qoyduğu kapitaldır".

Baş nazir deyib ki, regionumuzun inkişafını və sabitliyini təmin etmək üçün Gürcüstan və Azərbaycanın imkanlarından düzgün istifadə edilməlidir: "Nəhayət, Cənubi Qafqazda təkcə sülhü deyil, həm də rifahı və inkişafı təmin etmək üçün tarixi imkanımız var. Axı sülh, firavanlıq və inkişaf ticarət yüklərinin, boru kəmərlərinin və elektrik xətlərinin daimi yoldaşlarıdır və əksinə. Kommersiya yükləri, boru kəmərləri və elektrik xətləri sülh və rifahın daimi yoldaşlarıdır. Bölgəmizə əmin-amanlıq gəlib və bizə yalnız yük dövriyyəsini artırmaq, boru kəmərlərini, elektrik xətlərini artırmaq, Cənubi Qafqazda rifahı və inkişafı təmin etmək qalır ki, bu da sülhü daha da möhkəmləndirəcək, öz növbəsində Ermənistan, Gürcüstan və ya Azərbaycan üçün firavanlıq və inkişafın həcmini və sürətini artıracaq. İnanıram ki, biz üç Cənubi Qafqaz ölkəsinin liderləri təkcə fərdi olaraq deyil, həm də təbii ki, digər qonşularımız və beynəlxalq tərəfdaşlarımızla əməkdaşlıq çərçivəsində birgə işləmək üçün kifayət qədər iradə və müdriklik malikik".

**Ermənistan parlamentində 22 oktyabr iclasında Azərbaycanla bağlı yeni gərginlik yaşanıb. Müxalifət deputatı Geqam Manukyan hökuməti kəskin tənqid edərək iddia edib ki, artıq ölkənin iqtisadi siyasəti Azərbaycan Prezidentinin bəyanatlarına uyğun şəkildə formalaşır:** "Beləliklə, İlham Əliyevin bir cümləsi ilə İrəvanda başlayan narahatlıq Azərbaycanın Cənubi Qafqazdakı gücünü bir daha ortaya qoyur. Ermənistan cəmiyyətində "Azərbaycan olmadan inkişaf mümkün deyil" fikrinin tədricən kök salması artıq prosesin geri dönüşünün olmadığını göstərir. Cənubi Qafqazın tək gücü var - Azərbaycan və onunla hesablaşmaq lazımdır".

Hakim "Vətəndaş müqaviləsi" Partiyasından olan deputat, Ermənistanın Türkiyə ilə danışıqlardakı xüsusi nümayəndəsi Ruben Rubinyan isə bildirirb ki, Azərbaycanın Ermənistana yük tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırmaq barədə qərarı bizim nəqliyyat marşrutlarımızın tədricən şaxələndirilməsinin sübutudur. "Söhbət təkcə taxıldan getmir. Məsələ ondadır ki, biz nəhayət şaxələnmə mənbələri əldə edirik. Dünən eşitdiyimiz bəyanatı həqiqətən inqilabi adlandırmaq olar. Oktyabrın 21-də Azərbaycan Prezidenti İlham Əliyev bəyan etdi ki, qəbul edilən qərar sülhün artıq təkcə kağız üzərində deyil, həm də reallıqda olduğunun daha bir sübutudur. Bəs nə üçün müxalifət və müxalifət mətbuatı növbə ilə Əliyevin bu sözlərini sitat gətirmir?" - Rubinyan deyib.

**Ermənişünas alim Qafar Çaxmaqlı "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan ərazisindən Ermənistana yüklərin daşınması qadağasının qaldırılması və həmin yükün Ermənistana çatdırılması faktı Ermənistanda məmnuniyyətlə qarşılanıb:** "Ermənistan hökumətinin mətbuat xidməti bildirib ki, bu, Azərbaycanın Vaşinqton razılaşmasından sonra atdığı yaxşı addımdır. Təbii ki, Azərbaycan Ermənistandan adekvat addım gözləməkdə haqlıdır. Ermənistan Zəngəzur dəhlizinin açılmasında heç bir maneə görmür və bundan sonra dəhlizin keçəcəyi ərazidə inşaat işlərinin başlamasına da qərarlı görünür. Həm də Azərbaycanın bu jesti Paşinyan hakimiyyətinin dayaqlarını gücləndirir". Q.Çaxmaqlı N.Paşinyanın Tiflisdə səsləndirdiyi bəyanatı da normal qiymətləndirdi. Qeyd etdi ki, Azərbaycan Prezidentinin böyük jestinin qarşılığında erməni baş nazir sülhə yönəlik mövqe sərgiləyib. Ancaq ekspert görülməsi işlərlə bağlı addımlar atmağı zəruri sayır: "Bizim tərəfdə dəhlizə gedən yol - inşaat işləri bitmək üzrədir, Türkiyə artıq İğdır-Naxçıvan xəttində işləri sürətləndirir. Ermənistan öz ərazisində görəkən işləri görmək məcburiyyəti qarşısında buraxılıb. Bu işə dəhlizin açılmasına qarşı olan qüvvələr mane ola bilməzlər. Ölkədə xaos yaratmaq cəhdləri də nəticə vermir. Müxtəlif revanşist ünsürlərin çığır-bağırdan başqa əllərindən heç nə gəlməyəcəyi açıq görünür. Bu fürsəti reallığa çevirmək üçün perspektivlər açılıb".

❑ **E.PAŞASOY,
"Yeni Müsavat"**

# Paşinyan II Qareginə açıq verir - dini ayində iştirak edəcək

**Ermənistanın Ovanavank kilsəsində polis nəzarəti və gərginlik müşahidə olunur.**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, yerli Daxili İşlər Nazirliyinin məlumatına əsasən, bu, "ictimai qaydanın qorunması məqsədilə görülən tədbirlərdir".

Qeyd edək ki, kilsənin sabiq ruhanisi, keşiş Stepan Asatryan ( "ata Aram") oktyabrın 21-də bütün ermənilərin katolikosu II Qareginin patriarx fərmanı ilə ruhanilikdən azad edilib. Bundan sonra o, mülki şəxs statusu alaraq hər cür dini fəaliyyəti dayandırmalı idi.

Lakin Asatryan açıq şəkildə bəyan edib ki, bazar günü Ovanavank kilsəsində yenidən ayin (liturgiya) keçirəcək. Onun bu addımı həm kilsə rəhbərliyi, həm də hökumət tərəfdarları arasında rezonans doğurub.

Maraqlıdır ki, baş nazir Nikol Paşinyan da bəyan edib: həmin gün Stepan Asatryanın keçirəcəyi ayində şəxsən iştirak edəcək. Bu qərar ekspertlər tərəfindən II Qareginə açıq siyasi mesaj kimi qiymətləndirilir.

❑ **Musavat.com**



Robert Fitso

# Daha bir müttəfiqi Putindən ayrılmaq fikrinə düşüb

**Slovakiyanın baş naziri Robert Fitso dünən axşam Avropa İttifaqı sammitindən əvvəl Almaniya kansleri Fridrix Mertslə görüşüb.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə Dennik N portalı məlumat yayıb.

Görüş zamanı enerjidaşıyıcılarının qiymətləri və 2035-ci ildən daxili yanma mühərrikli avtomobillərin satışına qoyulan qadağa müzakirə olunub.

Mənbənin məlumatına görə, əgər Slovakiyanın tələbləri sammitin yekun sənədlərinə daxil edilərsə, Fitso böyük ehtimalla Rusiyaya qarşı sanksiyaları dəstəkləyəcək.

Baş nazir Fitso bu görüş barədə dünən səhər parlamentin Avropa Komitəsinin iclasında elan edib.

Daha əvvəl baş nazir bildirmişdi ki, əgər Avropa İttifaqı avtomobil sənayesinin maraqlarını nəzərə almazsa, o, Rusiyaya qarşı 19-cu sanksiya paketini bloklayacaq.

Fitsonun sözlərinə görə, Slovakiyanın əsas tələbləri artıq sammitin yekun sənədinin layihəsinə daxil edilib: "Əgər əldə etdiyimiz bu nəticələr yekun sənədlərdə öz əksini tapsa, mən onları bu axşam bir daha nəzərdən keçirəcəyəm və yəqin ki, kansler Mertsə bildirəcəyəm ki, biz 19-cu paketi dəstəkləyirik. Bu paket bizi birbaşa təsirləndirmir, lakin danışıqlar üçün yaxşı alətdir," - deyə o, deputatlara bildirib.

Gözlənilir ki, 2035-ci ildən daxili yanma mühərrikli avtomobillərin satışına qoyulan qadağa ilə bağlı müzakirələr kompromislə nəticələnəcək. Slovakiya bu məhdudiyyətin yumşaldılmasında israrlıdır.

Fitsonun sözlərinə görə, Aİ sammitində həmçinin karbon emissiyası kvotalarının genişləndirilməsi sistemi də müzakirə olunacaq.

❑ **Musavat.com**

# Xamneyi Tramp haqda elə sözlər dedi ki... - İranın arxayınlığının səbəbi

## Ali dini lider "ayaqdayıq" mesajı verdi; uranın zənginləşdirilməsi prosesi davam edir...

**İranın ali dini lideri ayətullah Əli Xamneyi ABŞ Prezidenti Donald Trampı İsrailə səfəri zamanı söylədiyi fikirlərə görə kəskin tənqid edib. Xamneyinin sözlərinə görə, Amerika prezidenti "boş sözlər və axmaq hərəkətlərlə işğal olunmuş Fələstində ümidsizliyə düşən sionistlərə ümid aşılamağa çalışıb".**

"ABŞ prezidenti öyünür ki, "biz İranın nüvə sənayesini bombaladıq və məhv etdik". Yaxşı, xəyal qurmağa davam et!", - Xamneyi deyib.

İran liderinin yuxarıdakı sözlərini necə oxumalı? 12 günlük müharibə zamanı doğrudanmı Tehranın nüvə proqramı heç bir zərər görməyib?

**Milli Məclisin deputatı Günay Ağamalı** hesab edir ki, cənub qonşumuz "gücümü itirməmişəm" mesajları verməkdədir. Deputatın sözlərinə görə, İranın ali dini lideri ayətullah Əli Xamneyinin ABŞ Prezidenti Donald Trampın İsrail səfəri zamanı söylədiyi fikirlərə bu dərəcədə emosional reaksiya verməsi əslində regionda yaranmış yeni siyasi və hərbi balansdan doğan gərginliyin ifadəsidir: "Xamneyinin ritorikasında "boş sözlər" və "axmaq hərəkətlər" kimi ifadələrin yer alması göstərir ki, Tehran son toqquşmalar fonunda siyasi cəbhədə təşviş keçirmir, əksinə, öz gücünü qoruduğu barədə mesaj verməyə çalışır.

İsrail və ABŞ-nin keçirdiyi 12 günlük hərbi əməliyyatlar fonunda İranın nüvə infrastrukturunun ciddi zərər görməsi barədə iddialar hələ də rəsmi şəkildə təsdiqlənməyib. Rəsmi Tehran bu məsələdə susqunluğunu strateji üstünlüyə çevirir, yəni nə itirdiyini demir, zəiflədiyini etiraf etmir. Əslində Xamneyinin "xəyal qurmağa davam et" ifadəsi həm daxili auditoriyaya, həm də Qərbə yönəlmiş bir psixoloji mesajdır - İran göstərmək istəyir ki, onun müdafiə və nüvə imkanları hələ də tam gücündədir.

Donald Trampın ritorikasında güc nümayişi, Xamneyinin cavabında isə ironik meydan oxumaq var. Bu, ABŞ ilə İran arasında artıq diplomatik deyil, psixoloji qarşıdurma mərhələsinə keçidin əlamətidir. Ali dini liderin soyuqqanlı və arxayın davranışları nə qədər daxili auditoriyaya hesablanmış addım olsa da, reallıq tamamilə fərqlidir. Hazırkı mərhələdə regionun güc mərkəzləri arasında informasiya, təbliğat və rəmzlər üzərindən aparılan savaş real silahların səsini kölgədə qoyur. Xamneyinin çıxışı da bu mübarizənin bir parçasıdır - o, öz xalqına "biz məğlub olmadıq" mesajını verir, dünyaya isə "İranla zarafat olmaz" siqnalı ötürür. Lakin bu nisbidir".

**"Müasir İnkişaf" İctimai Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü İsrail və ABŞ-nin İrana hücumlarının islam respublikasına böyük ziyan vurduğunu düşünür**: "Aparıcı hərbi, siyasi, elmi elitanın nümayəndələrinin öldürülməsi, hərbi və mülki obyektlərə vurulan zərbələr İranı çox çətin duruma saldı. Bu zərbələrin, xüsusilə də nüvə sənayesinə endirilən zərbələrin tamamilə ziyansız bir şəkildə sonlandığını iddia etmək doğru deyil. Hətta mən deyərdim ki, İsrailin ilk günlərdə vurduğu zərbələr miqyasına və nəticəsinə görə nəinki çox böyük idi, hətta rəsmi Tehran üçün şokedici idi. Bu zərbələrdən toparlana bilməyən İran növbəti ağır zərbələrlə də qarşılaşdı. Nüvə sənayesinə endirilən zərbələr isə İranı daha çətin bir duruma saldı. ABŞ-nin məhv edilməsi mümkün olmayan son model bombardmançı təyyarələri İrana, onun nüvə sənayesinə ağır zərbələr endirdi. Hətta bir sıra məqamlarda adamda elə bir təəssürat yaranırdı ki, İran səması İsrail-ABŞ təyyarələri üçün maneəsiz bir məkana çevrilib.



Lakin bütün bunlara baxmayaraq, İsrailin, eləcə də ABŞ-nin hücumlar vasitəsilə istəklərinə tam şəkildə çatdıqlarını söyləmək mümkün deyil. İsrailin əsas hədəfi İranın nüvə sənayesini məhv etmək, onu tamamilə dayandırmaq idi. Bu hədəfə nail olunduğunu elan edənlərlə razılaşmaq olmur. İranın nüvə sənayesi nəinki məhv olub, görünən budur ki, ölkə yeni bir sürət və cəhdlərlə dağılanları bərpa etməkdə, uranın zənginləşdirilməsini davam etdirməkdədir. Bütün bunlardan çıxış edərək, İran tərəfinin bəyanat və açıqlamalarını araşdıraraq, belə qənaətə gəlmək olar ki, rəsmi Tehranın nüvə sənayesi, hərbi infrastrukturu ABŞ-İsrail tərəfinin elan etdiyi şəkildə zədə almayıb və proses dayandırılmayıb".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Revanşistlərin müharibə xofu - "Bakının hücumu..."

## Daxili siyasi gərgin duruma Azərbaycan qorxusunu əlavə etmək planı

**Yaxın Şərqdə baş verən proseslər, Azərbaycanın sözügedən coğrafiyada artan rolu Ermənistanda narahatlıqla qarşılanır. "Armenianreport" portalı yazır ki, beynəlxalq ictimaiyyət müttəfiqlərinin birtərəfli hərəkətlərinə göz yummaqda davam edərsə, atəşkəs anlayışı saxtakarlığa çevriləcək:**

"O zaman təkcə Qəzza deyil, həm də Cənubi Qafqaz eyni ssenarilərin təkrarı ilə - ABŞ-də sülh bəyannaməsi ilə əldə edilmiş "razılaşmaların ləğvi" ilə üzləşə bilər. Müvafiq olaraq, biz bir daha yalnız özümüzə arxalanmalıyıq, ABŞ-nin susqun razılığı ilə Azərbaycanın müəyyən addımlar ata biləcəyini istisna etməməliyik".



Bu mövzuda "Bakı-Xəbər" xatırladır ki, Azərbaycanın Ermənistana qarşı ərazi iddiası yoxdur. Bu halda əsas məsələ odur ki, Ermənistan Azərbaycanla sülh şəraitində yaşamaq istəsin, o zaman ölkəmiz bu dövlətin də təhlükəsizliyini təmin edə bilər. Üstəlik, erməni mediası "sülh bəyannaməsi ilə əldə edilmiş "razılaşmaların ləğvi" riskini görür. Halbuki Azərbaycanın sülh anlaşmasını pozmaq niyyəti yoxdur. Bundan əlavə, "ABŞ-nin susqun razılığı ilə Azərbaycanın müəyyən addımlar ata biləcəyini istisna etməməliyik" deyərkən nə nəzərdə tutulur? Ermənilər Azərbaycanın sərhəddə yeni əməliyyatlarını gözləyirsə, bunu yalnız düşmən ölkənin mətbuatının blefi saymaq olar".

Beləliklə, Ermənistanda revanşist qüvvələr və onlara yaxın media son günlər "müharibə olacaq" vay-şivənini artırıblar. Hətta göründüyü kimi, "ABŞ-nin susqun razılığı ilə Azərbaycanın müəyyən addımlar ata biləcəyi istisna edilməməlidir" kimi iddialar irəli sürürlər. Bununla nə demək istəyirlər? Azərbaycanın guya ABŞ-nin razılığı ilə müharibə başlayacağını? Revanşist çevrələrdə müharibə xofu nə ilə bağlıdır?

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda gərgin daxili siyasi vəziyyətdən istifadə edən qüvvələr yanan ocağa benzin tökməyə çalışırlar: "Belə bir vəziyyətdən həmin qüvvələr öz maraqları üçün istifadə etmək istəyirlər. Daxili siyasi gərgin duruma həm də Azərbaycan qorxusunu əlavə etmək niyyəti güdülür. Hesab edirlər ki, Azərbaycanın müharibəyə başlayacağını və Ermənistanın "qurbanlıq" olduğu təbliğatını aparmaqla seçkilər yaxınlaşdıqca əhalini Paşinyandan narazı sala bilərlər. Lakin bütün bu təbliğat əsassızdır, heç bir həqiqət payı yoxdur. Azərbaycan sülh istiqamətində daha israrlıdır, Azərbaycan sülh qurucusudur və müharibənin əleyhinədir. Bu mövqeyini Azərbaycan təkcə sözlə deyil, əməli addımları ilə də nümayiş etdirir. Azərbaycan çox tez bir zamanda Ermənistanla sülh müqaviləsinin imzalanmasını istəyir. Sülh sazişinin imzalanması, daimi sülhün yaranması üçün Azərbaycan tərəfi Ermənistana elə bu günlərdə çox böyük jest etmiş oldu. Azərbaycan Prezidenti İlham Əliyev Astanaya dövlət səfərində bəyan etdi ki, Qazaxıstandan gələn taxılın Azərbaycan üzərindən Gürcüstana, oradan isə Ermənistana nəqli barədə məlumat verdi. Bu, sülh üçün, qarşılıqlı etimadın gücləndirilməsi üçün çox ciddi addımdır. Vaşinqton razılaşmalarından sonra etimadın gücləndirilməsi və sülhün dayanıqlı olması üçün bu addım tarixi əhəmiyyətə malikdir. Belə bir vəziyyətdə müharibənin olacağı barədə iddialar irəli sürmək absurddur və qəsdən ortaya atılmış cəmiyyəti çaşdırmağa xidmətə edən fikirlərdir".

**Ekspert vurğuladı ki, Azərbaycan-ABŞ münasibətlərinin yaxınlaşmasının sülhə qarşı olduğunu iddia etmək də gülüncdür:** "Bu cür iddia yalnız revanşist qüvvələrin Ermənistanda xalq arasında ABŞ-yə olan etimadı zədələmək, Azərbaycana qarşı nifrət aşılamaq, Paşinyana qarşı narazılıq yaratmaq niyyətidir. Həmin revanşist qüvvələr müharibə xofu üzərində Ermənistanda bir zamanlar hakimiyyətə gəlmişdilər, uzun illər ölkəni müharibə xofu ilə idarə etdilər və ağır duruma saldılar. Ənənəvi taktikalarından əl çəkmək istəmirlər. Onlara ordu içərisində bağlı olan qüvvələr qalırsa, onların sifarişi ilə hansısa mərhələdə təxribatlar törətmək cəhdlərinin olması mümkündür. Bunu edib Bakının, Vaşinqtonun üzərinə atmaq planları da qura bilərlər.

Halbuki Vaşinqtonun Ermənistan-Azərbaycan müharibəsində maraqlı olduğunu, guya razılığı ilə Azərbaycanın müharibə istiqamətində addımlar atacağı iddialarını irəli sürmək tamamilə cəfəng fikirlərdir. Pezident Donald Tramp şıxışlarında fəxrlə bəyan edir ki, dünyada sülhə verdiyi ən böyük töhfələrdən biri də Azərbaycan-Ermənistan müharibəsini sülhlə bitirməyə nail olmasıdır. Tramp özünün də iştirakı ilə 8 avqust Vaşinqton razılaşmalarını nəzərdə tutaraq bunu deyir. Hətta Nobel sülh mükafatını alması üçün bu məqamı da qabardır. Erməni revanşistlərin iddialarını bu amil də puça çıxarır".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 192 (8802) 23 oktyabr 2025

# Tramp-Putin görüşü olmayacaq - müharibəyə davam?

**Vaşinqton Rusiya və ABŞ prezidentləri arasında keçirilməsi nəzərdə tutulan sammitə hazırlığı dayandırıb. Bu barədə "NBC News" qəzeti Ağ Evin yüksək vəzifəli rəsmisinə istinadən xəbər verib.**



NBC-dəki mənbənin sözlərinə görə, Tramp hesab edir ki, hazırda nə Rusiya, nə də Ukrayna danışıqlarda irəliləməyə hazır deyil. Vəziyyətlə tanış olan avropalı diplomatların "Röyters" agentliyinə verdiyi məlumata görə, Trampın yaxın iki həftə ərzində keçirməyə ümid etdiyi Budapeşt görüşü Putinin öz tələblərindən geri çəkilməyə hazır olmadığı aydın olduqdan sonra sual altına düşüb.

Xarici işlər naziri Sergey Lavrov və dövlət katibi Marko Rubio arasında bu həftə keçirilməsi planlaşdırılan hazırlıq görüşü bu səbəbdən ləğv edilib. "Bu o deməkdir ki, amerikalılar prezidentlər arasında sammitə hazır deyillər", - "Röyters" bildirir.

"Ruslar çox şey istəyirdilər və amerikalılara aydın oldu ki, Tramp Budapeştdə razılaşma əldə etməyəcək", - diplomatlardan biri deyib.

Rəsmi şəxsin sözlərinə görə, Amerika liderinin Putinlə "yaxın gələcəkdə" görüşmək planı yoxdur.

İmtina Ukraynaya ABŞ-nin dəstəyinin daha geniş miqyasda davam edəcəyi anlamına gəlirmi? Müharibə daha amansız fazaya keçə bilərmi?

**Siyasi şərhçi Heydər Oğuz "Yeni Müsavat"a deyib ki, Trampın həm Ukraynaya, həm də Rusiyaya təqdim etdiyi sülh təklifi heç bir tərəf üçün məqbul deyildi:** "Onun Ukraynaya təklif etdiyi sülh planının "Donbası ver, sülh imkanı qazan" məntiqinə söykəndiyi hamımıza bəllidir. Təbii ki, nə Ukrayna, nə də Avropa ölkələri bu təkliflə razılaşardılar. Ukrayna savaşının təkcə ukraynalıların məsələsi olmaqdan çıxdığı, bütün Avropa ölkələrini ilgiləndirdiyi hamımıza aydındır. Bu cür təslimiyyətçi mövqe Rusiyanı onu Qərb dövlətlərinə hücuma həvəsləndirə bilərdi, ona görə də Avropa ölkələrinin bu perspektivlə razılaşması mümkün görünmürdü. İndi məlum olur ki, Tramp Putinə də əsla qəbul etməyəcəyi şərtlərlə savaşı dayandırmağı məsləhət görməyə hazırlaşırmış. Trampın yeni təklifini hazırlayan isə özü yox, müharibənin bitməsini arzulamayan Avropa dövlətləri imiş. İddialara görə, 12 maddədən ibarət olan bu təklif Putinin qırmızı cizgilər hesab etdiyi hədəflərini heçə sayır və onlardan bəzilərini belə sıralamaq mümkündür:

- Sülh danışıqlarına başlamazdan əvvəl tərəflər atəşi kəsməli, hər kəs hazırda dayandığı yerdən kənarlaşmamalı;

- Girov götürülən və ya oğurlanan ukraynalı uşaqlar geri qaytarılmalı;

- Rusiyanın dondurulmuş aktivlərinin ən azı yarısı (150 milyard dollar) Ukraynanın yenidən inşasına sərf olunmalı;

- Rusiyaya veriləcək torpaqlar qanuni olaraq Ukraynanın ərazisi kimi qalmalı, Moskva, sadəcə, formal olaraq bu ərazilərin idarəçiliyini ələ keçirməli;

- Avropa ölkələrinin yaratdığı sülhməramlı qüvvələr təmas xəttinə yerləşdirilməli;

- Sülhməramlı missiyaya rəhbərliyi Tramp həyata keçirməli;

- Ukraynanın Avropa İttifaqına üzv olmasının önü açılmalı və s.

Sözsüz ki, Rusiya Prezidenti Vladimir Putinin bu şərtləri qəbul etməsi mümkün deyildi və görünür, ABŞ və Rusiyanın baş diplomatları görüşdən əvvəl apardıqları danışıqlarda bu həqiqəti anladıqlarından müzakirələri dayandırmağı qərara alıblar".

**Heydər Oğuzun fikrincə, bunlar, sadəcə, "aysberqin görünən tərəfi"dir:** "Trampın özü də dəfələrlə etiraf edib ki, onun üçün beynəlxalq öhdəliklər və müttəfiq maraqları ikinci dərəcəli məsələdir. Əsas məsələ ABŞ-nin iqtisadi maraqlarıdır. Deməli, biz də Budapeşt görüşünün təxirə salınmasının əsas sirrini ABŞ-nin iqtisadi maraqlarında axtarmalıyıq. Məlum olduğu kimi, Trampın Rusiyaya meylli siyasəti ABŞ-nin alternativ enerjinin əsas mənbəyi olan nadir torpaq nümunələrinə ehtiyacından qaynaqlanır. Tramp Çinlə rəqabətə görə Rusiya ilə əlaqələr qurmağa çalışırdı. Bəlkə bu səbəbdən də Ukraynanın milli maraqlarını Rusiyaya satmağa hazırlaşırdı. Dünən Avstraliya və Pakistandan gələn bəzi məlumatlar Trampın Rusiya ehtiyacının hələlik azaldığı yönündəydi. Məlumata görə, ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Avstraliyanın baş naziri Antoni Albanese ilə görüşüblər. İki lider kritik minerallar və nadir torpaq elementləri üzrə əməkdaşlıq müqaviləsi imzalayıblar. ABŞ və Avstraliya dövlətlərinin bu əməkdaşlığının Çinin bu sahədə yaratdığı monopoliyanı sındırmağa hesablandığı açıq ifadə olunur. Bənzər müqavilənin Pakistanın baş naziri ilə də bağlandığı bildirilir.

Görünən budur ki, Tramp alternativ mənbələr tapdıqca, ABŞ-nin Rusiyadan asılılığı da azalır və nəticədə Ukrayna onun üçün yenidən önəm qazanır. Ağ Evin Avstraliya ilə bu müqaviləni imzaladıqdan dərhal sonra Putinlə Budapeştdə görüşü təxirə salması da təsadüfə bənzəmir".

**Trampın yenidən "Ukrayna əyarlarına qayıtması"nı önəmli bir "dönüş nöqtəsi" adlandıran siyasi şərhçi bundan sonra Rusiyaya qarşı savaşa münasibətdə mühüm dəyişikliklərin olacağını da istisna etmir. Bununla belə, H.Oğuz ABŞ-nin Ukraynaya "Tomahavk" raketləri verəcəyinə inanmır:** "Məsələ burasındadır ki, ABŞ-ın "Tomahavk" raketləri həqiqətən də çox deyil. 1987-ci ildə SSRİ ilə bağlanan orta mənzilli nüvə silahlarının ləğvi müqaviləsindən sonra ABŞ "Tomahavk" raketlərinin böyük qismini sıradan çıxarıb. Hazırda onun əlində yalnız dənizdən atılan "Tomahavk" raketləri qalır. Havadan və qurudan atılan "tomahavk"lar isə utilizasiya olunub. Üstəlik, Ukraynanın həyata keçirdiyi hərbi taktika da bu cür silahların istifadəsini gərəkdirmir. Şərti olaraq Ardenlər taktikası adlandırdığım bu müharibə tərzində rəqib tərəfin hərbi texnikalarını yanacaqsız buraxmaq və onu bu şəkildə zərərsizləşdirmək nəzərdə tutulur. Bilirsiniz ki, Hitlerə qarşı ikinci cəbhə açan ABŞ və Böyük Britaniya məhz bu taktikadan istifadə edərək nasizmin sonunu gətirmişdi. 1944-cü ilin sonunda alman ordusu bir neçə tərəfdən mühasirəyə düşmüşdü. Hitler bu mühasirəni yarmaq üçün Belçika, Niderland və Fransa ərazisində yerləşən Ardenlər vadisinə hücum etmək əmri vermiş, ilk döyüşlərdə xeyli uğurlar qazanmışdı. Amma sonunda ağır texnikaların yanacağı bitmiş və alman ordusu geri çəkilməyə başlamışdı. Beləcə, alman nasizminin tənəzzülünə start verilmişdi. Hazırda Ukrayna ordusunun rus enerji mənbələrini hədəf alması da bunu göstərir. Məlumatlara görə, Ukrayna Rusiyanın neft və qaz emalı zavodlarının 38%-dən çoxunu külə çevirib. Rusiyada yanacaq qıtlığı artıq özünü göstərməyə başlayıb. Təbii ki, zaman keçdikcə, yanacaq qıtlığı daha aydın hiss ediləcək və Rusiya öz ifrat ambisiyalarından vaz keçəcək. Hər halda, Ukrayna və Avropa hərbi strateqlərinin planları belədir. Yeri gəlmişkən, onu da qeyd edim ki, Rusiyanın enerji bazalarının vurulmasının yeganə məqsədi onun hərb maşınını yanacaqsız buraxmaq deyil. Məqsəd həm də Rusiyanı iqtisadi cəhətdən sarsıtmaq və imkansızlıq üzündən yeni silahlar istehsal etməsinin qarşısını almaqdır. Trampın isə bu məsələdə bir də özünün xüsusi məqsədləri var - Rusiyanı mümkün olduğu qədər zəiflətmək və ABŞ sərmayəsinə möhtac hala gətirmək".

**Heydər Oğuzun fikrincə, Ardenlər taktikasını həyata keçirmək üçün Kiyevin ABŞ silahlarından daha çox kəşfiyyat məlumatlarına ehtiyac var:** "Yəqin ki, bundan sonra ABŞ-nin kəşfiyyat peykləri və kosmik texnologiyalarından daha sıx şəkildə istifadə olunacağını görəcəyik. Bununla belə, Ukrayna gündə öz mövqeyini dəyişən ABŞ hakimiyyətinə çox bel bağlamamalıdır. Tramp öz istədiyini Rusiyadan alandan sonra yenidən özünün əvvəlki "Moskva əyarları"na da qayıda bilər".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



## Orban: "Trampla Putinin görüşünə hazırlıq davam edir"

**ABŞ Prezidenti Donald Tramp və Rusiya lideri Vladimir Putinin Budapeştdə keçiriləcək mümkün görüşünə hazırlıq davam edir. "Report" xəbər verir ki, bu barədə Macarıstanın baş naziri Viktor Orban sosial şəbəkələrdə məlumat yayıb.**

"Macarıstanın xarici işlər naziri Peter Siyarto Vaşinqtondadır. Tramp və Putinin görüşünə hazırlıq davam edir. Tarix hələ müəyyən edilməyib", - V.Orban yazıb.

Xatırladaq ki, ABŞ və Rusiya iki ölkə liderlərinin Budapeştdəki görüşünə hazırlığın dayandırıldığını bəyan edib.



## Rusiya ABŞ-yə Ukrayna ilə bağlı nota göndərib

**Rusiya ABŞ-yə Ukrayna ilə bağlı sülh sazişinin bağlanması şərtlərini əks etdirən qapalı diplomatik nota ("non-paper") göndərib. "Report" xəbər verir ki, bu barədə "Röyters" agentliyi amerikalı rəsmilərə istinadən bildirir.**

Sənəddə Moskva Donbas və Luqanskın bütün ərazisi üzərində nəzarətin qurulması tələbini bir daha təsdiqləyib.

Agentliyin mənbələrindən birinin sözlərinə görə, Rusiyanın bu mövqeyi ABŞ Prezidenti Donald Trampın hazırkı kursuna faktiki olaraq ziddir. O, cəbhə xəttinin mövcud mövqelərdə dondurulmasının tərəfdarıdır.

Donald Trampın Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü gərgin keçib. Ukrayna rəsmisi agentliyə bildirib ki, Tramp Ukraynaya təzyiq göstərərək onu Donbasın bir hissəsindən imtina etməyə razı salmağa çalışıb.



## Çin Almaniyanın ən böyük ticarət tərəfdaşına çevrilib

**Çin ABŞ-ni geridə qoyaraq Almaniyanın bir nömrəli ticarət tərəfdaşı olub. APA "Reuters"ə istinadən xəbər verir ki, bu, Almaniyanın statistika komitəsinin məlumatlarında əksini tapıb.**

Belə ki, bu ilin yanvar-avqust aylarında Almaniyanın Çinlə ixracat və idxalatının ümumi həcmi 163.4 milyard avro təşkil edib.

Həmin dövrdə Almaniyanın ABŞ ilə idxalat və ixracat həcmi isə 162.8 milyard avro təşkil edib.

Qeyd edək ki, ötən ilə qədər 8 il ərzində Çin Almaniyanın ən böyük ticarət tərəfdaşı idi.

Ötən il ABŞ Çinin 8 illik ənənəsini pozaraq Almaniyanın ən mühüm ticarət partnyoruna çevrilib.

İndi isə birincilik yenidən Çinə ötürülüb.



# Tənqidi düşüncə ilə yaltaqlıq arasında

Zamin HACI
zaminhaci@gmail.com

**Dövlət İmtahan Mərkəzinin müdirəsi xalqın balalarına düz yol göstərmək əvəzinə, görün nə deyir: "Tənqidi düşüncə, düzgün suallar vermək, çeviklik, özünü inkişaf etdirmək və öyrənmə bacarığı - bunlar gələcəyin əsas bacarıqlarıdır".**

Əlbəttə. Tənqidi düşüncənin Kürdəxanıya ən qısa yol olduğunu biz çox yaxşı dərk edirik. Məsləhətdirsə, özünüz davam edin, bizi çıxın. Uca millətimiz artıq bu işin yolunu tapıbdır, uşağına doğulan kimi məsləhət verir, hətta dua kimi yazdırıb boynundan asır: "Başını aşağı sal, dinmə, nə desələr, onu elə, qabağa gedərsən". Vəssalam. Bizim, necə deyərlər, rol modelimiz bundan ibarətdir. Tənqidi düşüncə... Yox, bir, ağcaqanad quyruğu. Nə bilim, tüklü əcinnə...

Elə o biri maddələr də həyat prinsipləri olaraq heç bir şeyə yaramır, həmin prinsiplərlə heç Dağıstan Universitetinin Qazax filialının San-Marino texnikumunun regionşünaslıq ixtisasına qiyabi girmək belə mümkün deyildir. Məsələn, düzgün suallar verməklə Azərbaycanda kim qabağa gedib, yaxud özünə və ailəsinə gün ağlamışdır? Bir nəfər belə tanımırıq. Əksinə, səhv suallar və yanlış cavablar verənlər zirvələrə yüksəlib. Hətta heç bir sual-cavab verməyənlər, mal kimi susanlar daha parlaq yaşayırlar. O cümlədən, zəvzək jurnalistlər həmin kadrların zəhləsini tökəndə adətən belə cavab alırlar: "Filankəs danışdı, quş buraxdı. Mən susuram, ağıllı görünürəm, başım da ağrımır".

Həqiqətən belədir. Azərbaycanda DİM müdirəsinin dediyi birinci nəzəri punkta ("tənqidi düşüncə") lap əməl eləsən belə, ikinci punktda, yəni əməli fəaliyyətə keçərkən ("düzgün suallar vermək") peşmançılıq labüddür. Özü də bu, bugünün-dünənin işi deyil, əsrlər boyunca bölgəmizdə tənqid və düzgünlük insana yalnız problem yaşadıb. "Düz adam düzdə qalar", "Dilim-dilim olasan, dilim", "Danışmaq gümüşdür, susmaq qızıldır" kimi ata sözləri və məsəllərimiz havadan-sudan, öz-özünə yaranmayıb ki? Bunların hamısının arxasında böyük xalq təcrübəsi dayanır. Gözü çıxan qardaşdan öyrənmişik.

Mövzudan uzaqlaşmaq kimi çıxmasın, amma elə sayın DİM müdirəsinin çıxışından fərəhlənərək "tənqidi düşüncə" bacarıqlarımı inkişaf etdirmək qərarına gəldim və suallarım məhz onun idarəsinin fəaliyyəti ilə bağlıdır. Həkimlərin sertifikasiya imtahanları zamanı testlərdə belə suallar var imiş: "Şəkərli diabet xəstələrində hamiləliyin saxlanması üçün göstərişlərin genişlənməsinə mümkünat yaradıb?", "Yumurtalıqların PCOS sindromu zamanı insulinə davamlılıqsızlıqla keçəndə..." və sairə. Həkimlər deyirdilər, bundan heç nə anlamırıq. Açığı, mən də heç nə anlamadım. Xüsusilə "davamlılıqsızlıq" sözünü kəşf edən DİM ekspertinə yararlılıqsızlıq üzrə avamlılıqsızlıq fəxri adı verilməsini təklif edirəm.

Ali məktəblərə qəbulda düşən suallar da bəzən Yaroslav Haşekin ünlü əsərindəki kimi olur: "On dörd qatlı binanın hər qatında səkkiz pəncərə, damda iki pəncərə və iki baca var, hər qatda da iki kirayəçi yaşayır. İndi isə, cənablar, mənə deyin görüm, qapıçının nənəsi neçənci ildə ölmüşdür?"

Qayıdaq mövzuya. Sayın müdirənin digər təklifləri də gənclərin təlim-tərbiyəsini pozmaqdan başqa nəyəsə yaramır. Çeviklik, özünü inkişaf, öyrənmək... Bunların bizdə qara qəpiklik əhəmiyyəti yoxdur. Onsuz karyera yüksəlişini, lap elə yüksəliş cəhənnəm, adi iş tapmağı da kiminsə qahımı olmaq, tapşırılmaq təmin edir. Ən yaxşı halda. Ən pis halda isə qabağa getmək üçün yalan danışmaq, yaltaqlıq eləmək, rüşvət vermək, oğurlamaq lazımdır. Bunun belə olduğunu öyrənmək üçün çox da uzağa getməyə ehtiyac yoxdur. Elə girişdə adını çəkdiyimiz Kürdəxanı yolçularının tərcümeyi-hallarını oxumaq yetər. Ən çevik və özünü inkişaf etdirənlərimizin axırı oradan keçir. Bankirlər, deputatlar, nazirlər, icra başçıları, generallar... Bir növ, Kürdəxanı tənqidi düşüncə və özünü inkişafımızın kəsişmə nöqtəsidir.

Amma lap çox özünü inkişaf etdirsən, villada ev dustağı şəklində də qala bilərsən. İnsafən, bu variant mümkündür. DİM başçısının çıxışındakı "Bu gün prestij artıq zahiri görünüş və ya dəbdə olmaqla deyil, faydalı olmaq, problemləri həll etmək və işini peşəkarcasına yerinə yetirməklə ölçülür" cümləsini də mən bu cür anladım. Villa çox olsa, Kürdəxanıya getmirsən.



# Zəngəzurun "qırmızı lenti" belə kəsiləcək - tarix bəlli, amma...

## Prezident dəhlizin nə zaman açılacağını anons etdi, lakin daha tez olması da mümkündür; İrəvan prosesi uzatmaq yolu seçib?

**"Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonunadək baş verə bilər". "Yeni Müsavat" xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata bəyanatında məlumat verib.**

Dövlət başçısı qeyd edib: "Hazırda planlaşdırdığımız və həyata keçirdiyimiz bütün işlərlə yanaşı, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində bütün avtomobil və dəmir yolu əlaqələri gələn ilin ortalarına qədər tamamlanacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də hər şey belə sürətlə reallaşdırılacaq və belə olan halda, Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonuna qədər baş verə bilər".

**Erməni politoloq Alen Qevondyan** isə deyib ki, Zəngəzur dəhlizi 2026-cı ildə açılacaq. Onun sözlərinə görə, "Zəngəzur dəhlizi" ifadəsinə İrəvanın etirazına baxmayaraq, hər şey Bakı və Ankaranın dediyi kimi olacaq: "Vaşinqtonda sənədlərin imzalanmasından sonra bir sıra hadisələr baş verdi, bəlli oldu ki, bu sənədlər hələ heç nə demək deyil, hər şey Bakı və Ankaranın verdiyi qərarlara uyğun olacaq. Bundan sonra Tramp bu məsələyə öz yanaşmasını açıqladı, Əliyev bəyanatlar verdi. Əliyev BMT, türk ölkələrinin sammiti və digər platformalarda Zəngəzur dəhlizindən danışdı. Paşinyan bundan narahatdır. Bu, Zəngəzur dəhlizini vermək və ya verməmək məsələsi ilə bağlı deyil, onlar çoxdan razılaşıblar, Zəngəzur dəhlizi reallığa çevriləcək. Paşinyan üçün vacibi odur ki, seçkilərə qədər bu mövzu ictimai dövriyyədə olmasın. Seçkilərdən sonra isə o, şəxsən qırmızı lenti kəsərək Zəngəzur dəhlizini açacaq və onu hədiyyə edəcək" (Teleqraf).

A.Qevondyan 2026-cı ildə Ermənistan Konstitusiyasının referendum yolu ilə dəyişdiriləcəyini da söyləyib. Söhbət Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının Ermənistanın əsas qanunundan çıxarılmasından gedir. Bu, sülh müqaviləsinin imzalanması üçün Bakının tələbidir.

Belə bir fikir də var ki, erməni tərəfi Zəngəzurla bağlı prosesin uzadılması yolunu seçib. Ona görə də son vaxtlar İrəvandan ziddiyyətli bəyanatlar eşidilir.

Bəs dəhliz daha tez, məsələn, 2027-də işə düşə bilərmi?

**Professor Qabil Hüseynli qeyd edib ki, dəhlizin 3 il sonra açılacağı anonsu bəzi səbəblərdən irəli gəlir:** "İlk növbədə bu çox böyük prosesdir. Ermənistan isə indiyə qədər heç bir iş görməyib. Azərbaycan bəyan edib ki, yolun ona aid hissəsi gələn il tamamlanıb təhvil veriləcək. Ermənistan isə özünə aid yolu görünür ki, daha gec istifadəyə verəcək. Burada ABŞ-nin iştirak məsələsi də var. Hazırda hansı şirkətin dəhlizə yerləşəcəyi, mexanizmi və s. texniki amillər dəqiqləşməyib. Belə görünür ki, Zəngəzur dəhlizi Tramp hakimiyyətinin sonuna yaxın reallaşacaq. Mən burada da müəyyən riskləri görürəm və yaxud tərəddüd edirəm. Çünki Rusiyanın 3 il sonra müdaxilə edəcəyi təhlükəsi var".

Q.Hüseynli bu dəhlizdən region ölkələrinin də faydalanacağını xatırladıb. Onun dediyinə görə, Rusiya və İran "Tramp yolu"na qısqanclıqla yanaşır, lakin hər iki ölkə ambisiyalarını kənara qoyaraq bu logistikadan yararlana bilər: "Ermənistan da oyunlarına son qoymalıdır. Azərbaycandan daha çox elə bu ölkə Zəngəzur dəhlizinin iqtisadi dividentlərindən istifadə edəcək. Ancaq indiyə qədər bir qarış ərazidə iş görməyiblər. Məncə, Birləşmiş Ştatlar Ermənistanı tələsdirməli və təzyiqləri artırmalıdır. 2028-ci il çox gecdir və ona qədər regionda müxtəlif proseslər baş verə bilər. Zənnimcə, daha tez reallaşması mümkündür və gələn ilin parlament seçkilərindən sonra Paşinyan hakimiyyəti dəhlizlə bağlı addımlarını sürətləndirəcək. Prezident isə bu layihənin işə düşməsi ilə bağlı digər ölkələrin də addımlar atacağını vurğulayıb. Yəni Zəngəzur Orta dəhlizin bir hissəsi olduğu üçün iştirakçı ölkələr də addımlarını sürətləndirməlidir. Bu mənada yekun gözlənti 2028-ci ildir".

**Vətəndaş Həmrəyliyi Partiyasının katibi Azər Canıyev hesab edir ki, dəhlizin açılmasında həm siyasi, həm texniki faktorlar var. Onun fikrincə, koridorun 2028-ci ildə açılacağı gözləntisi daha çox geopolitik amillərlə əlaqədardır:** "Ermənistan ABŞ-Rusiya dialoqunu izləyir. İrəvan ehtiyat edir ki, Moskva Tramp marşrutu ilə bağlı əks addımlar ata bilər. Digər səbəb daxili proseslərdir. Paşinyan seçkilərdə qələbəni təmin etməmiş Zəngəzurla bağlı praktiki iş görmək istəmir. Lakin 2028-dən daha tez də layihə işə düşə bilər. Görünür ki, cənab prezident bütün layihənin reallaşmasını nəzərdə tutub. Yəni dəmiryol xəttinin işə düşməsi, yük daşımaları, Ermənistanın 42 kilometr yolu tikib hazırlaması zaman tələb edəcək. Fikrimcə, yenə də çox şey hadisələrin inkişafından asılıdır".

**A.Canıyev Ermənistanın layihəni yubatmaq cəhdlərini əbəs sayır, Naxçıvana quru keçidin təmin olunacağını qaçılmaz hesab edir:** "Paşinyan bu yolun iqtisadi faydalarını təbliğ edir. Ermənilərə göstərir ki, Tramp marşrutu onlara gəlir gətirəcək. İllərlə yolların bağlı qalması iqtisadiyyata təsir edib. Bu gün Paşinyan hökuməti öz xalqına demək istəyir ki, dəhlizin açılması onların sosial rifahına necə xeyir verəcək".

**Deputat Mübariz Qurbanlı isə Teleqraf.az-a bildirib ki, Zəngəzur dəhlizi (Tramp marşrutu) məsələsi əldə edilmiş razılaşmaya uyğun vaxtında və mütləq şəkildə həllini tapacaq:** "Bu ilin avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı sənədlərə uyğun olaraq dəhliz hansı marşrutla müəyyənləşibsə, elə də yekunlaşacaq. Kiminsə onu dəyişməsi, müdaxilə etməsi mümkün deyil. Çünki Vaşinqton sənədləri imzalandıqda açıq şəkildə qeyd edildi ki, bundan geri dönüş yoxdur".

**YAP təmsilçisinə görə, sərhədlərin dəqiqləşməsi ilə bağlı prosesin hazırda Zəngəzur istiqamətində aparılması dəhlizin daha tez işə düşməsinə hesablanıb:** "Bu dəhliz nə qədər tez fəaliyyətə başlayacaqsa, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin və bu istiqamətdəki kommunikasiyanın da istifadəsinə imkan yaranacaq. Zaman bunu tələb edir. Dünya ticarəti, əlaqələr artmaqdadır. Məhz bu reallıq tələb edir ki, iqtisadi-ticari əlaqələrin daha intensiv getməsi üçün Zəngəzur dəhlizi kimi marşrutlar işə düşsün".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Azərbaycan Ermənistana çörək verəcək - Bakıdan tarixi jest

## Vaşinqton anlaşmasından sonra İrəvan blokadadan çıxır - Qazaxıstan taxılı Aktau-Bakı marşrutu ilə bu ölkəyə daşınacaq; yekun sülh sənədinədək daha hansı yaxşılığı edə bilərik?

**“Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb”.**

“Yeni Müsavat” bildirir ki, bu sözləri Prezident İlham Əliyev oktyabrın 21-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata bəyanatında deyib. Dövlət başçısı vurğulayıb: “Onu da qeyd etməliyəm ki, Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb və ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub. Zənnimcə, bu, həm də Azərbaycanla Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir”.

“Ermənistan Respublikası Azərbaycan Respublikası Prezidentinin Ermənistana istiqamətlənən yüklərin tranzitinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı bəyanatını alqışlayır”. Bunu isə Ermənistanın baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryan bildirib: “Bu addım regional kommunikasiyaların açılması, qarşılıqlı etimadın möhkəmləndirilməsi və Ermənistanla Azərbaycan arasında Vaşinqtonda əldə olunmuş razılaşmalara uyğun olaraq qurulmuş sülhün institusionallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir”. “Qazaxıstan taxılının ilk partiyası tezliklə Aktau-Bakı marşrutu, daha sonra isə Azərbaycan və Gürcüstan dəmir yolları ilə Ermənistana gətiriləcək. Sülh qurulub”.

Bunu da Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan bildirib. Öz növbəsində baş nazirin müavini Mqer Qriqoryan isə bildirib ki, Azərbaycanın tranzit məhdudiyyətlərini aradan qaldırması regionda əməkdaşlıq və sülhə töhfədir.

Eyni zamanda Ermənistanın baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevə Azərbaycanın Ermənistana yüklərin tranzitinə dair bütün məhdudiyyətləri aradan qaldırmasına görə təşəkkür edib.

Ermənistan işğalçılıq siyasəti səbəbindən 30 ildən çoxdur ki, blokada şəraitindədir. Ağ Evdə əldə olunan sülh anlaşmasından sonra Bakı ilə İrəvan arasında etimad mühiti yaranmağa başlayıb. Paraflanmış sülh mətnində də tərəflərin diplomatik əlaqələr qurması, iqtisadi sahədə əməkdaşlıq nəzərdə tutulur. Eyni zamanda nəqliyyat kommunikasiyalarının blokadadan çıxarılması hələ 2020-ci ilin 10 noyabr sənədində razılaşdırılmışdı. İndi isə bəlli olur ki, Azərbaycan yük tranziti ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb.

Bu qərar daha hansı istiqamətdə daşınan yüklərə aiddir? Ermənistan Azərbaycan üzərindən yükləri Rusiya və İrana və əks istiqamətdə də daşıyacaqmı? Sülh müqaviləsi imzalanmadan Bakı İrəvana daha hansı güzəşti və ya yaxşılığı edə bilər?

**Analitik Elxan Şahinoğluna görə**, Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırması və ilk belə tranzit yükü olan Qazaxıstan taxılının Ermənistana daşınmasına başlanılması Nikol Paşinyanın ölkəsi daxilində mövqelərini gücləndirəcək. Onun fikrincə, bu, Azərbaycanın da maraqlarına uyğundur: “Nikol Paşinyan gələn ilin iyun ayında keçiriləcək parlament seçkilərinə hazırlaşır. O, erməni cəmiyyətinə Azərbaycanla sülhün vacibliyini təlqin etdiyi halda, radikallar, o cümlədən kilsə bunun əleyhinə çıxır. Yüklərin Azərbaycan üzərindən daşınmağa başlanılması Paşinyanın tərəfdarlarının sayını artırmalıdır. Təsadüfi deyil ki, erməni rəsmilər bir ağızdan Azərbaycan Prezidenti İlham Əliyevin qərarını alqışlayıblar. Paşinyana qarşı radikal mövqedə olanların arqumenti zəiflədi. Onlar deyə bilməzlər ki, Azərbaycan üzərindən tranzit yükləri qəbul etməyin”.



**Politoloq Züriyə Qarayeva hesab edir ki, növbəti addımlar da istisna deyil, həmçinin Türkiyədən Ermənistana bəzi jestlər ola bilər:** “Bakı və Ankara saatları tutuşdurur, hədəf həm də Paşinyanın hakimiyyətdə qalmasını təmin edə bilməkdir. Lakin sülh quruculuğu prosesində təbii ki, bu qərarların verilməsi normaldır. Tərəflər qarşılıqlı addımlar atmalıdırlar ki, inam güclənsin, əlaqələr normallaşsın, erməni cəmiyyətində xəstə zehniyyətli adamların da düşüncəsində dəyişikliklər olsun. Azərbaycan bir daha sübut edir ki, onun düşmənçilik niyyəti yoxdur, qarşı tərəfin işğalçı hərəkətləri ucbatından bu imkanlardan məhrum olublar. İndi sülh razılaşması var və blokada şəraitinə son qoyulması istiqamətində addımlar atılır”.

**Politoloq ehtimal edir ki, növbəti qərarlardan biri Rusiyadan məhsulların Azərbaycan üzərindən Ermənistana daşınması ola bilər:** “Çünki yeganə yol Gürcüstanın Yuxarı Lars istiqamətidir. Bu ərazinin relyefi dağlıqdır, xüsusən qış aylarında çətinliklər yaranır, yük maşınları günlərlə gözləməli olur. Azərbaycan bu şansı da Ermənistana verə bilər. Amma İrəvan da Zəngəzur dəhlizinin açılması ilə bağlı addımlarını sürətləndirməlidir. Eyni zamanda yekun sülh müqaviləsinin imzalanması üçün Bakının sonuncu şərti də yerinə yetirilməlidir. Məncə, Qazaxıstan taxılının daşınması ilə bağlı qərarın özü də onu göstərir ki, Ermənistan konstitusiya dəyişikliyinə gedəcək, rəsmi Bakı buna əmindir və ona görə belə bir addım atır. Sadəcə, zaman məsələsi var və gələn ilin yayında keçiriləcək seçkilərdə Paşinyanın qələbəsi həm də tezliklə referendum qərarına gətirib çıxaracaq”.

Qeyd edək ki, Cənubi Qafqaz regionunun şərqində yerləşən Ermənistan şərqdən Azərbaycan, qərbdən Türkiyə, şimaldan Gürcüstan və şərqdən İranla həmsərhəd olan kiçik dövlətdir. Azərbaycana məxsus bölgələri işğal altına alan Ermənistan bununla özünü Azərbaycan və Türkiyədən təcrid edib, iqtisadi blokada vəziyyətinə salıb.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

# Bölgənin zəif “bəndi” - Rusiya Ermənistanı ram eləsə...

## Paşinyan parlament seçkilərini uduzsa, rusiyapərəst qüvvələrin hakimiyyətə gəlməsi bölgədə hər şeyi dəyişəcək




**Azərbaycan-Rusiya münasibətlərində “soyuq müharibə” bitsə də, Moskvanın Güney Qafqaza yönəlik “hibrid savaşı” davam edir. Səbəb bəllidir: Kremlin regionla bağlı əsas hədəfləri dəyişməyib. Cənubi Qafqazın ən zəif “bəndi” isə Ermənistandır. Çünki Rusiyanın bölgədəki legitim hərbi bazaları məhz onun ərazisindədir. Üstəgəl, Türkiyə-Ermənistan, İran-Ermənistan sərhədini hələ də rus hərbçilər (“FSB”-FTX) qoruyur.**

Bu xüsusda qarşıdakı ayların və gələn ilin bütövlükdə region üçün kifayət qədər taleyüklü və həlledici olacağını söyləmək mümkündür. Daha iki səbəbdən: 2026-cı ildə Bakı və İrəvan arasında sülh müqaviləsinin imzalanması və Zəngəzur dəhlizində (“Tramp marşrutu”nda) əsas işlərə başlanma ehtimalı yüksəkdir.

**Erməni politoloq Ruben Mehrabyan** Youtube kanalında deyib ki, Rusiya Prezident Administrasiyası rəhbərinin 1-ci müavini Sergey Kiriyenko bütün postsovet ölkələrini kurasiya edir: “Rusiya təsirinin yayılmasına nəzarət edir. Hibrid müharibənin, informasiya-təxribat savaşının baş komandanıdır. Ona görə də Ermənistan və Azərbaycan onların anlamında bir-birindən çox az fərqlənir”.

Onun sözlərinə görə, Rusiya balta ilə işləyir, onun üçün yaradıcılığa, kreativliyə yer yoxdur. Rusiya ancaq dayandırılanda dayanır.

**Azərbaycan, ABŞ və Ermənistan arasında Ağ Evdə imzalanan 8 avqust sənədləri ilə bağlı Rusiyanın mümkün gedişlərinə toxunan erməni təhlilçi bildirib:** “8 avqust tarixli Vaşinqton razılaşmalarına rəsmi Kremlin reaksiyası millimetrə qədər hesablanmış bir mövqedir. Moskva deyir ki, bəli, təbii ki, biz razıyıq, sülhü alqışlayırıq, amma bəzi suallar var, hələlik yerdə tikinti işi yoxdur, ona görə də bu suallar bizim üçün cavabsız qalır. Amma bu sualları verəcəyik”.

**Sözünə davam edən erməni politoloq Moskvanın Bakı və İrəvandan konkret gözləntisindən də danışıb:** “Rusiyanın gözləntiləri nədir? Moskva ümidlidir ki, Azərbaycan Ermənistanı şantaj etməyə davam edəcək və bu fonda o, bizi "xilas etmək" üçün, daha doğrusu, öz imperiya maraqlarını reallaşdırmaq üçün hərəkətə keçəcək".

Mehrabyanın qənaətincə, Moskva buna Ermənistana göndərilən və qara-qışqırıq salan desantların, yerli qüvvələrin köməyi ilə nail olmağa çalışır.

Bəs Rusiya keçmiş satellitini ram edə biləcəkmi? Bakı, Ankara və Vaşinqton buna qarşı nə edə bilər?

**“Alyans” Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov** “Yeni Müsavat”a bildirdi ki, təkcə erməni siyasi təhlilçiləri deyil, Kreml də bu ümidləri saxlamaqdadır: “Hələ də ümid edirlər ki, Ermənistanı Qərbə yaxınlaşmaqdan çəkindirmək mümkün olacaq və əvvəlki orbitinə qaytarmaq cəhdləri uğurla nəticələnəcək. Bu məqsədlə də yeni siyasi birlik yaratmaq cəhdləri göstərilir. Rusiya Ermənistanda nüfuzu, çəkisi olan gücləri birləşdirməyə çalışır. Bir tərəfdən erməni kilsəsi, digər tərəfdən Samvel Karapetyan başda olmaqla, böyük kapitala malik iş adamları birləşdirilir. Hələlik yalnız Robert Köçəryan bu birliyə qoşulmaq istəyini ifadə edib, gələcəkdə digər qüvvələrin, o cümlədən Serj Sərkisyanın da buraya qoşulmaq ehtimalı çoxdur”.

**Siyasi ekspert vurğuladı ki, bu, kifayət qədər təhlükəli bir layihədir və bölgənin gələcəyinə çox ciddi təsir göstərə bilər:** “Əgər Rusiya məqsədinə nail olsa, Nikol Paşinyan parlament seçkilərini uduzsa, rusiyapərəst qüvvələrin hakimiyyətə gəlməsi bölgədə hər şeyi dəyişəcək. 8 avqust Vaşinqton razılaşmalarının icra olunması da bu zaman dayandırılacaq, sülh sazişinin imzalanması qeyri-mümkün olacaq və təbiidir ki, Ermənistan Konstitusiyasının dəyişdirilməsi də alınmayacaq. Bu təhlükələri həm Qərb, həm Türkiyə, həm də Azərbaycan nəzərə almalıdır və bunun reallaşmaması üçün gərəkən işlər görülməlidir. Paşinyan son bir ildə nüfuzunu müəyyən qədər itirib. Ancaq bu gün yenə də Ermənistanın ən nüfuzlu siyasətçisidir. Ondan sonra müxalifət liderləri içərisində nisbətən nüfuza sahib olan Robert Köçəryandır. Bu nüfuzun az olduğunu, parlament seçkilərində qalib gəlməyə bəs etməyəcəyini nəzərə alan Rusiya rəhbərliyi bu yaxınlarda Köçəryanı Moskvaya dəvət elədi, onu təlimatlandırdılar və başa saldılar ki, əvvəlki qaydada seçkiyə getmək heç bir nəticə verməyəcək, birləşmək lazımdır. Ola bilər, Samvel Karapetyanın timsalında yeni bir lider ortaya çıxaracaqlar”.

**A.Səmədov dedi ki, bu vəziyyətdə hansı addımların atıla biləcəyi, Rusiyanın bu planlarını pozmaq üçün hansı işlərin görülməli olduğu barədə ciddi müzakirələrə ehtiyac var:** “Ən azı Nikol Paşinyanın Ermənistanda nüfuzunu aşağı salacaq heç bir addım atılmamalıdır, heç bir bəyanat verilməməlidir. Mən hesab edirəm ki, Azərbaycan Prezidentinin Astanada Ermənistana yolların açılması barədə səsləndirdiyi bəyanat da bu istiqamətdə atılan mühüm addımlardan biridir. Ancaq bu istiqamətdə iş davam etdirilməlidir. Ermənistan həlledici seçkilər ərəfəsindədir və rusiyapərəst qüvvələrin bu seçkilərdə qalib gəlməsinə qətiyyən imkan verilməməlidir. Burada ABŞ-nin üzərinə də böyük iş düşür”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Mərkəzi Bank makroiqtisadi proqnozlarını yenilədi: dəyişiklik nədən qaynaqlanır?

**Azərbaycan Mərkəzi Bankı İdarə Heyəti uçot dərəcəsinin 7 faiz, faiz dəhlizinin aşağı həddinin 6 faiz, faiz dəhlizinin yuxarı həddinin isə 8 faiz səviyyəsində dəyişməz saxlanmasına qərar verib.**

“Yeni Müsavat”ın məlumatına görə, bankda faiz dərəcələrinə həsr olunmuş brifinqdə bildirilib ki, faiz dəhlizi ilə bağlı qərarın qəbulu zamanı faktiki və gözlənilən inflyasiyanın hədəf intervalı (4±2%) ilə uzlaşması, qlobal iqtisadiyyat və maliyyə bazarlarındakı mövcud şərait, daxili makroiqtisadi meyllər, eləcə də pul siyasəti qərarlarının real sektora ötürücülüyünün xüsusiyyətləri əsas götürülüb: “Hazırda illik inflyasiya proqnozlaşdırılan trayektoriyaya yaxın hərəkət edir. 2025-ci ilin sentyabrında 12 aylıq inflyasiya 5.7 faiz təşkil edib. İllik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7.9 faiz, ödənişli xidmətlər üzrə 5.3 faiz, qeyri-qida məhsulları üzrə isə 2.4 faiz təşkil edib. İllik baza inflyasiya 4.9 faiz olub”.

Beynəlxalq mühitdə qeyri-müəyyənliklərin hələ də qalması qlobal əmtəə qiymətlərində də dalğalanmalara səbəb olur. Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatına görə 2025-ci ilin sentyabrında əmtəə qiymətləri indeksi illik 3.3 faiz artıb, ərzaq və içki qiymətləri indeksi isə 2.6 faiz azalıb. BVF oktyabrda 2025-ci il üzrə qlobal inflyasiya proqnozunu dəyişməz saxlayıb (4.2 faiz), 2026-cı ilə dair proqnozu isə cüzi artırıb (3.7 faiz).

**AMB-nin məlumatına görə, xarici valyuta bazarında vəziyyət stabildir və burada ümumilikdə təklif tələbi üstələyir:** “Son 7 ayda mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin son 12 ayda 1.8 faiz bəndi azalaraq sentyabrda 29 faizə enməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir”. Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımovun dediyinə görə, əhalinin nağd xarici valyuta satışı alışını 230 milyon dollar üstələyib. Mərkəzi Bankda keçirilən valyuta hərraclarında orta satış təklifi 70 milyon dollar olsa da, real alış 45 milyon dollar olub. Nəticədə Dövlət Neft Fondu son 3 ayda büdcəyə transfertlərin bir hissəsini xarici valyuta ilə icra etməli olub.

Proses belə davam edərsə, Mərkəzi Bank ilin sonunadək valyuta bazarına alışyönümlü müdaxiləni istisna etmir. T.Kazımovun dediyinə görə, bu məsələdə ilin sonuna doğru artan büdcə xərcləməsi nəzərə alınır.

AMB bildirir ki, valyuta bazarında tarazlığın əsas amili olan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin 9 ayında xarici ticarət balansının müsbət saldosu 1.8 milyard ABŞ dolları təşkil edib. Pul baratları üzrə də xalis daxilolmaların ötən ilə nəzərən müsbət dinamikası tədiyə balansının cari hesabının profisitli olmasını dəstəkləyir. Mərkəzi Bankın 2025-ci ilin sonuna cari hesabın profisiti üzrə proqnozu cüzi olaraq artırılma istiqamətində dəyişdirilib. 2026-cı ilə isə cari hesabın profisitinə dair proqnoz dəyişməz saxlanılıb.

**Pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tətbiq edilir:** “Ümumiyyətlə, təminatsız pul bazarında aktivlik yüksək olub, 9 ayda əqdlərin sayı ötən ilin müvafiq dövrünə nəzərən 16.1 faiz artıb. Bu bazarda faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində, uçot dərəcəsinə yaxın hərəkət edib. AZIR indeksinin orta günlük səviyyəsi iyulda 7.15 faiz, avqustda 6.97 faiz, sentyabrda 6.96 faiz, oktyabrın ötən dövründə isə 6.89 faiz olub. Mərkəzi Bank əsasən 1 həftəlik açıq bazar əməliyyatları ilə pul siyasətindən kənar amillərin AZIR-ə təsirini minimallaşdırmağa çalışır. Avropa Yenidənqurma və İnkişaf Bankının AZIR indeksinə bağlanmış manatla istiqrazlar yerləşdirməsi bu indeksin maliyyə bazarlarında istinad dərəcəsi kimi rolunu daha da artırır. Ötən iclasdan bəri gəlirlilik əyrisində və Mərkəzi Bankın notları üzrə gəlirlilikdə də azalmalar baş verib. Eyni zamanda yeni cəlb edilmiş manatla depozit və yeni verilmiş kredit faizlərində azalmalar qeydə alınıb. Bütün bunlara təsir edən mühüm amillərdən biri cari ilin iyul ayında faiz dəhlizi parametrlərindəki azalma olub. Digər əsas amil Maliyyə Nazirliyinin keçirdiyi depozit hərraclarıdır. Bunların nəticəsində hazırda banklarda 2,7 milyard manatlıq likvidlik var”.

Mərkəzi Bank baza ssenarisinə əsasən, 2025-ci ilin sonunda və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağını proqnozlaşdırır. Baza ssenarisi üzrə oktyabr proqnozlarına görə illik inflyasiyanın 2025-ci ildə 6 faiz, 2026-cı ildə isə 5.7 faiz olacağı gözlənilir. İnflyasiya proqnozunun yuxarıya doğru dəyişdirilməsi, əsasən təklif amilləri ilə bağlıdır: “Ötən iclasdan sonra inflyasiyanın risklər balansında nəzərəçarpan dəyişiklik baş verməyib. Qlobal ticarət mühitindəki qeyri-sabitlik əmtəə və maliyyə bazarlarında dalğalanmaları davam etdirir. Əsas xarici risk mənbəyi olan idxal qiymətlərinin daxili inflyasiyaya təsiri ticarət tərəfdaşlarında inflyasiya prosesləri və nominal effektiv məzənnənin dinamikası ilə bağlıdır. Daxili risk faktorları ilə bağlı qeyd olunmalıdır ki, yenilənmiş proqnozlar növbəti dövrdə inflyasiyanın, əsasən, təklif - xərc amilləri hesabına formalaşacağını göstərir. 2026-cı ilə dövlət büdcəsinin ilkin parametrləri və kredit qoyuluşlarının illik artımının səngiməsi məcmu tələbin izafi artımı riskini azaldır”.

**AMB rəhbəri bildirir ki, Azərbaycanda inflyasiyaya ən çox təsir edən daxili amil kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləridir. Azərbaycanla ticarət tərəfdaşı olan ölkələrdəki bahalaşma ölkə daxilində qiymət artımına bu il 3,12 faiz bəndi artırıcı təsir göstərib:** “Daxili amillərə gəlincə isə dövlət və ev təsərrüfatlarının istehlakının artması inflyasiyaya 3,35 faiz bəndi, kənd təsərrüfatı məhsullarının bahalaşması 4,28 faiz bəndi artırıcı təsir edib. 9 ayda ölkədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 9,3 faiz artıb. Bu, inflyasiyaya 4,28 faiz bəndi artırıcı təsir göstərib. Biz bu artımın səbəblərini təhlil etmək üçün Dövlət Statistika Komitəsinin bazasından istifadə etmişik. Müşahidələr göstərib ki, 9 ayda birillik bitkiçilikdə bu göstərici 4,6 faiz, çoxillik bitkiçilikdə 22,7 faiz təşkil edib. Heyvandarlıq məhsullarının istehsalçı qiymət indeksi doqquz ayda 9,6 faiz artıb. Bu artımda idxal olunan meyvə və əkin toxumlarının qiymətinin 61 faiz, heyvandarlıq yemi üçün istifadə olunan məhsulların idxal qiymətinin 27.1 faiz, mineral və kimyəvi azot gübrələrinin idxal qiymətinin isə 11,8 faiz artması əsas rol oynayıb.

Ev təsərrüfatlarının inflyasiya gözləntiləri inflyasiyaya azaldıcı təsir göstərib. Doqquz ayda bu göstərici inflyasiyaya 3,35 faiz azaldıcı təsir göstərib".

AMB-nin oktyabr proqnozuna görə, 2025-ci ilin sonuna kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 7,9 faiz artacaq. İyulda gözlənti 6,9 faiz idi. Bu artım ölkə üzrə ümumi inflyasiyaya 0,47 faiz bəndi artırıcı təsir göstərəcək.

2026-cı ilin sonuna kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 6,9 faiz artacaq. İyulda AMB bu göstəricini 4,8 faiz proqnozlaşdırmışdı. Artım inflyasiyaya 0,93 faiz artırıcı təsir göstərəcək.

AMB-nin yenilənmiş proqnozlarına görə, illik inflyasiyanın 2025-ci ildə 6 faiz, 2026-cı ildə isə 5,7 faiz ətrafında olacağı gözlənilir. Bu iyul ayında qurum 2025-ci ildə 5,7 faiz, 2026-cı ildə isə 5,3 faiz ətrafında olacağını açıqlamışdı. Proqnozlardakı dəyişiklik əsasən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksindəki artımla bağlıdır.

T.Kazımov AMB-nin neft-qaz qiymətlərinə dair proqnozlarını da açıqlayıb. Məlum olub ki, proqnozlara azalma istiqamətində dəyişiklik edilib. Belə ki, AMB gələn il neftin 1 barelinin orta qiymətinin 64-65 ABŞ dolları arasında olacağını proqnozlaşdırıb. Bu əvvəlki proqnoza nisbətən 0,6 dollar azdır.




Mərkəzi Bank gələn il təbii qazın min kubmetrinin orta qiymətinin 288 ABŞ dolları olacağını gözləyir.

Qeyd edək ki, AMB-nin bu ilin iyul ayında açıqladığı proqnozlarda 2026-cı ildə neftin 1 barelinin orta qiymətinin 64,6 ABŞ dolları, təbii qazın 1 000 kubmetrinin qiymətinin isə 290 ABŞ dolları olması nəzərdə tutulurdu.

AMB cari əməliyyatlar balansının (CƏB) profisitini 2025-ci il üzrə 3,7 milyard dollar proqnozlaşdırıb. T.Kazımovun sözlərinə görə, 2026-cı il üzrə CƏB-in profisitinin 3 milyard dollar olacağını gözləyirlər: “Əvvəlki proqnoza nisbətən CƏB-in profisiti üzrə proqnoz yuxarı doğru reviziya edilib”.

AMB həmçinin ölkə iqtisadiyyatındakı illik artımla bağlı proqnozuna da dəyişiklik edib. Oktyabr proqnozuna əsasən tənzimləyici 2025-ci ildə Azərbaycanda 2,2 faiz, o cümlədən qeyri-neft-qaz iqtisadiyyatında 3,7 faiz, 2026-cı ildə 2 faiz, o cümlədən qeyri-neft-qaz iqtisadiyyatında 4,4 faiz artım gözləyir. Bu ilin iyul ayında qurum 2025-ci ildə iqtisadi artımın 3 faiz, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 4,2 faiz olacağını proqnozlaşdırmışdı.

T.Kazımovun dediyinə görə, AMB ildən ölkənin daşınmaz əmlak bazarında müşahidələrə başlayıb. Həmin müşahidələrə əsasən bu ilin 9 ayında bu bazarda 10,9 faizlik qiymət artımı qeydə alınıb. Tənzimləyici bu artımın həm tələbin artması, həm də xərc amillərinin təsiri ilə formalaşdığı qənaətindədir və bazarda hər hansı köpüyün olduğunu qəbul etmir.

**Baş bankir qeyd edib ki, Mərkəzi Bank daxilində bu məsələ bir neçə dəfə müzakirə olunub və ipoteka kreditləşməsinin genişlənməsi ilə bağlı təşəbbüslər hayata keçirilir:** “Bizim marağımız ondadır ki, əhalinin mənzil alışı üçün əlavə maliyyə məhsulları yaradılsın və ipoteka portfeli artsın. Bu, həm sosial baxımdan, həm də iqtisadi artım nöqteyi-nəzərindən çox vacibdir”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

Milli şüur, vətənpərvərlik

YENİ MÜSAVAT
N 52 (8662) 20 mart 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# Deputatdan valideynlərə və müəllimlərə çağırış

**"Rəqəmsal mühitin sürətli inkişafı yalnız uşaqların həyat tərzini dəyişdirməklə qalmır, eyni zamanda onların daha çox öyrənmələri və milli mənlik şüurlarını inkişaf etdirmələri üçün geniş imkanlar yaradır".**

## "Rəqəmsal mühitdə düzgün istiqamətləndirilməyən vətəndaşlar öz mənliklərini, Vətənə olan sevgi və bağlılıqlarını itirə bilərlər"



Bu fikirləri "Yeni Müsavat"a açıqlamasında Milli Məclisin deputatı Nigar Məmmədova bildirib.

Onun sözlərinə görə, rəqəmsal texnologiyalar, uşaqlarımıza gələcəyin liderləri, elm adamları və vətənpərvər vətəndaşları olmaq üçün lazımi bilik və bacarıqları əldə etməyə kömək edə bilər, lakin bu inkişaf yalnız texnoloji bacarıqlarla məhdudlaşmamalı, eyni zamanda hər bir uşağın milli kimliyini mənimsəməsi və Vətənin olan sevgi və bağlılığını gücləndirməsi əsas məqsəd olmalıdır. **Deputat diqqətə çatdırıb ki, rəqəmsal əsrdə, internetin və süni intellektin inkişafı ilə məlumatların əlçatanlığı çoxalıb:** "Bu, uşaqlara istənilən sahədə bilik əldə etmək imkanı yaradır və onların qlobal dünyada həmrəylik və əməkdaşlıq ruhunu inkişaf etdirir. Ancaq əsas məsələ bu texnologiyaların uşaqların milli mənlik şüuruna təsirini düzgün idarə etməkdir. Hər bir vətənpərvər gənc, öz müstəqil dövlətini və mədəniyyətini dərindən anlamalı, bununla yanaşı, dünya ilə əlaqələrini gücləndirərək özünü qlobal cəmiyyətdə də tanıtmalıdır. Rəqəmsal mühitdə uşaqların maraq dairələrinin genişlənməsi, onların milli tariximizi və mədəniyyətimizi daha dərindən öyrənmələrinə də şərait yaradır. Lakin burada da balansın saxlanması vacibdir. Onlayn dünya ilə real dünya arasında düzgün balans tapmaq, uşaqların inkişafını həm fiziki, həm də intellektual baxımdan düzgün yönləndirmək lazımdır çünki hər bir sağlam vətənpərvər şəxsiyyətin əsasını həmrəylik, əməksevərlik və müsbət sosial əlaqələr təşkil edir".

**N.Məmmədova milli dəyərlərə, ana dilinə və mədəniyyətə hörmətin uşaqların təhsilində mühüm roluna da diqqət çəkib:** "Rəqəmsal mühitdə düzgün istiqamətləndirilməyən vətəndaşlar öz mənliklərini, o cümlədən Vətənə olan sevgi və bağlılıqlarını itirə bilərlər. Bu səbəbdən valideynlər və təhsil mütəxəssisləri uşaqları rəqəmsal dünyada olduğu qədər, milli irs və Vətən sevgisi ilə də tanış etməlidirlər. Beləliklə, yeni nəsil həm dünyaya açıq olacaq, həm də özünə inamlı, güclü bir şəxsiyyət kimi yetişəcək. Bu günün uşaqları gələcəyin vətənpərvər liderləri olmaqla yanaşı, həm də milli iqtisadiyyatın, cəmiyyətin inkişafında söz sahibi olan şəxsiyyətlər olacaq. Onların rəqəmsal bacarıqları, onların şəxsi və peşəkar inkişaflarına təkan verə bilər, ancaq bunu edərkən milli kimliklərini unutmaqları qəbuledilməzdir. Erkən yaşlardan uşaqlara təhsil vermək, onların sağlam və vətənpərvər vətəndaşlar kimi böyüməsini təmin edəcək".

**Deputatın fikrincə, rəqəmsal savadlılıqla yanaşı, onların milli dəyərlərə və Vətənə olan bağlılığını gücləndirən tədris metodları inkişaf etdirilməlidir**: "Beləliklə, uşaqlarımız yalnız texnoloji sahədə irəliləməyəcək, həm də milli dəyərlərimizi qorumaq və inkişaf etdirmək istiqamətində irəliləmiş olacaq. Həmçinin uşaqların rəqəmsal mühitdən düzgün şəkildə faydalanması üçün valideynlər və müəllimlər birlikdə çalışmalı, onların təhsilinə, onlayn təhlükəsizliyinə və sağlam rəqəmsal vərdişlərin formalaşmasına nəzarət etməlidirlər. Uşaqların real dünyada öz bacarıqlarını nümayiş etdirə bilmələri və hər bir sahədə uğurlar əldə etmələri üçün yalnız rəqəmsal deyil, həm də real həyatda onlara müsbət şəraitlər yaratmaq vacibdir. Rəqəmsal dövrün gəncləri öz şəxsiyyətini təkmilləşdirmək, milli dəyərləri yaşatmaq və ölkənin gələcəyi üçün faydalı olmaq üçün rəqəmsal platformalardan səmərəli istifadə etməli, hər zaman öz Vətənini sevməli və bu sevgini gələcək nəsillərə aşılamalıdırlar".

Beləliklə, rəqəmsal dünyada böyüyən uşaqların milli mənlik şüurunun inkişafı, yalnız texnoloji bacarıqlarla bağlı deyil, eyni zamanda milli kimlik və vətənpərvərlik prinsipləri ilə də sıx əlaqəlidir. Gənc nəsil öz köklərini və mədəniyyətini unutmadan, müasir dünyada mövcud olan qlobal imkanlardan faydalanmalıdır. Hər bir uşaq rəqəmsal platformalar vasitəsilə öz mədəniyyətini tanıyıb, öz ölkəsinin tarixini və qəhrəmanlarını öyrənərək, milli dəyərləri qorumağın və gələcək nəsillərə ötürməyin vacibliyini dərk etməlidir.

Bu prosesdə təhsil müəssisələri və valideynlər birgə fəaliyyət göstərərək, uşaqların yalnız texnoloji savadlılığını artırmamalı, həm də onların öz millətinə və Vətəninə olan sevgisini, bu sevgini hər bir sahəyə tətbiq etmələrini təmin etməlidir. Belə bir yanaşma həm milli irsin qorunmasına, həm də qlobal inteqrasiya ilə yanaşı, ölkəmizin inkişafına töhfə verəcək və yeni nəsli gələcəyin güclü vətəndaşları kimi yetişdirəcək. Bu zaman uşaqlarımızın rəqəmsal dünyada, eyni zamanda real həyatda da uğurlar əldə etməsi və müstəqil düşüncə tərzinin formalaşması daha sağlam şəkildə təmin olunacaq.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ**

# Bakıda Birinci Türkoloji Qurultayın 100 illik yubileyi keçiriləcək




**Birinci Türkoloji Qurultayın 100 illik yubileyi keçiriləcək. Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev bu barədə sərəncam imzalayıb.**

Sərəncam Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın və bütövlükdə Türk dünyasının XX əsr elmi-mədəni həyatının parlaq səhifəsini təşkil etdiyini nəzərə alınaraq imzalanıb.

Sərəncama görə, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirməli, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

Sərəncamda qeyd olunub ki, 2026-cı ilin fevral ayında Bakı şəhərində Birinci Türkoloji Qurultayın təşkilinin 100 ili tamam olur:

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, Türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi.

Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırmış, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırmışdır.

Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür".



# Əsgər getməyə hazırlaşanların nəzərinə! - yenilik var

**Artıq vətəndaşlar hərbi xidmətlə bağlı məlumat və bildirişləri "myGov" platforması üzərindən onlayn əldə edə bilərlər. Musavat.com xəbər verir ki, bu imkan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin birgə layihəsi nəticəsində yaradılıb.**

Məlumata görə, "myGov" üzərindən vətəndaşlar ilkin hərbi qeydiyyat, hərbi həkim komissiyasının qərarları, möhlət hüququ, çağırışdan azadolma, hərbi xidmət haqqında məlumatlar və digər bildirişlərlə tanış ola bilirlər.

İstifadəçilər bu məlumatları "myGov" veb portalı və ya mobil tətbiq vasitəsilə şəxsi kabinetlərindən baxa, sənədləri PDF formatında yükləyə və ya rəqəmsal şəkildə paylaşa bilirlər.

Qurumdan bildirilib ki, bu addım vətəndaş məmnunluğunun artırılmasına, proseslərin şəffaflığının təminінə və Silahlı Qüvvələrin sağlam çağırışçılarla komplektləşdirilməsinin səmərəliliyinə xidmət edir.



## “60 nəfərin xaricdə təhsil alması nəzərdə tutulub” - nazir müavini

**“Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi təqaüd proqramı” çərçivəsində təşkil olunmuş müsabiqənin nəticələrinə dair mətbuat konfransı baş tutub.**

“Yeni Müsavat” xəbər verir ki, mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, mədəniyyət və yaradıcılıq məhsullarının 10 faiz artırılması planlaşdırılır: ""Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi təqaüd proqramı" çərçivəsində 60 nəfərin xaricdə təhsil alması və müvafiq ixtisasların artırılması nəzərdə tutulur. Bu təşəbbüsün əsas nəticələrindən biri mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi təqaüd proqramının təsis edilməsidir. Proqram çərçivəsində müxtəlif təlimlərin təşkili, audiovizual sənət və digər sahələr üzrə gənclərə dəstək göstərilməsi planlaşdırılır.

“Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi təqaüd proqramı” çərçivəsində tələbələr dünyanın aparıcı universitetlərində təhsil alırlar. Hazırda 44 təqaüdçümüz 16 müxtəlif ölkənin ali təhsil müəssisələrində təhsil alır".

❑ **KÖNÜL,**
**“Yeni Müsavat”**



## 15 milyon ton yükün daşınması üçün yeni marşrut açılacaq

**Vaşinqton sammiti nəticəsində razılaşdırılmış TRIPP layihəsinin 42 kilometrlik məsafəsinin tamamlanması istiqamətində müzakirələr gündəmdədir.**

Musavat.com xəbər verir ki, bu fikirləri oktyabrın 22-də keçirdiyi brifinqdə **Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov** bildirib. Nazir diqqətə çatdırıb ki, bu, Orta dəhlizin yeni istiqaməti ola bilər:

“Nəticədə 15 milyon ton yükün çatdırılması üçün yeni marşrut işə salına bilər. Bu isə Avropa İttifaqı ölkələri, region dövlətləri, o cümlədən Asiya ölkələri üçün yeni imkanlar vəd edir”.

Nazir əlavə edib ki, Prezident İlham Əliyev Qazaxıstan səfəri zamanı Azərbaycanın Ermənistana münasibətdə məhdudiyyətləri aradan qaldırdığını bildirib:

“Bu açıqlama Vaşinqtonda əldə olunan razılaşmanın müsbət tərəflərindən biridir. Bu, eyni zamanda Ermənistan üçün də razılaşmanın ilkin müsbət tərəfidir. Bu, həmçinin bölgə ölkələri üçün faydalıdır, o cümlədən Ermənistan üçün. Bu baxımdan layihənin prioritet olması üçün müsbət inkişafları görə bilərik”.

## Estoniyanın xarici işlər naziri: “Azərbaycanın Ukraynanı dəstəkləməsi önəmlidir”

**"Azərbaycan rəhbərliyini təbrik və təqdir edirəm. Vaşinqtondakı razılaşma mühümdür".**

Musavat.com xəbər verir ki, bu fikirləri Estoniya xarici işlər naziri Marqus Tsaxna bildirib. Estoniyalı nazir hesab edir ki, Avropa İttifaqı bu məsələdə xüsusi rol oynayacaq. Rusiya-Ukrayna müharibəsindən də danışan nazir qeyd edib ki, Azərbaycanın Ukraynanı dəstəkləməsi önəmlidir: “Biz bu gün Prezident İlham Əliyevlə görüşdə də bunu müzakirə etdik. Biz əməkdaşlığı davam etdirməliyik və hesab edirik ki, sülh uzunmüddətli olmalıdır”.

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

# Moskva məhkəməsindən yeniyetmələrə dair irqçi qərar - Bakıdan sərt təpki

**Xəbər verdiyimiz kimi, Moskvada 2120 nömrəli məktəbin 9-cu sinif şagirdləri - Canpolat Quliyev və Elnar Nuriyev adi məktəb davasına görə “xuliqanlıq” maddəsi ilə məhkəmə qarşısına çıxarılıblar. İttiham aktına əsasən, guya onlar 8-ci sinif şagirdini geyim tərzinə görə ələ salıblar və aprelin 21-də həmin oğlana hücum edərək çənəsini sındırıblar.**



Əslində burada milli nifrət, zorakılığın təbliği və ya sosial təhlükə kəsb edən davranış yoxdur. Bu, sırf məktəb daxilində baş vermiş bir insidentdir - istənilən ölkədə belə hallara qarşı pedaqoji və psixoloji tədbirlərlə reaksiya verilir. Lakin Rusiya hüquq-mühafizə orqanları bu hadisəni dərhal “xuliqanlıq” kimi qiymətləndirərək cinayət işinə çeviriblər. Uşaqlara 2 il şərti azadlıqdan məhrumetmə və 10 min rubl cərimə kəsilib.

Son illər Rusiyada azərbaycanlı və ya Orta Asiyadan olan gənclərlə bağlı hər hansı bu cür insident dərhal “ictimai təhlükəli davranış” kimi təqdim olunur. Eyni hadisə rus şagirdlər arasında baş verəndə isə bu, “münaqişə”, “emosional davranış”, “yeniyetmə səhvi” kimi izah edilir.

Rusiya mediasının da bu hadisəni şişirdərək təqdim etməsi, sosial şəbəkələrdə “onları Azərbaycana deportasiya etmək lazımdır” tipli çağırışların yayılması cəmiyyətdə mövcud olan ksenofobiyanın dərinliyini göstərir. Bu, təkcə iki yeniyetmənin deyil, bütövlükdə rus cəmiyyətində yaşayan azərbaycanlıların və digər müsəlman icmalarının ünvanına yönəlmiş təzyiq atmosferinin təzahürüdür.

Əslində bu cür hallar Rusiya dövlətinin “multikulturalizm” siyasətinin formal xarakter daşıdığını bir daha sübut edir. Moskva rəhbərliyi illərdir “bərabərlik” və “millətlərarası harmoniya”dan danışsa da, məhkəmə və istintaq orqanlarının davranışları tam əks istiqamətdə gedir.

Azərbaycanlı gənclərə qarşı çıxarılan hökm - iki il şərti azadlıqdan məhrumetmə və 10 min rubl cərimə - bəlkə də hüquqi baxımdan yüngül görünə bilər, lakin mənəvi və siyasi mənada bu, çox ağır siqnaldır. Çünki məsələ sadəcə iki uşağın davranışı deyil, Rusiya sisteminin kimə qarşı sərt, kimə qarşı yumşaq olmağının göstəricisidir.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb. O bildirib ki, işin konkret detallarını, cinayət əməlinin necə tövsif olunduğunu bilmədən hakimin niyə bu qərarı verdiyini demək çətindir: “Şagirdlər arasında davanın olması mümkündür. Lakin kiminsə digərinə ağır xəsarət yetirməsinə, vurub çənəsini sındırmasına hüquq göz yuma bilməz. Bəli, yəqin ki, burada milli faktor da var. Təqsirləndirilən tərəf Azərbaycan övladlarıdır. Son vaxtlar Rusiyada hüquq-mühafizə orqanları tərəfindən azərbaycanlılara və qeyri-ruslara qarşı total, hüquq qaydalarına və beynəlxalq hüquq normalarına zidd addımların atıldığını müşahidə edirik. Bunların fonunda Moskvada belə bir hadisə yaşanır və 2 il şərti azadlıqdan məhrumetmə baş verir. Bu, artıq Rusiya qanunvericiliyi ilə tənzimlənir. Mən hansı maddə ilə ittiham irəli sürüldüyünü, o maddənin sanksiyasında şərtidən başqa cəza varmı, hakim yüngül formanı seçibmi deyə bu cür detalları bilmirəm. Uşaqların yaş həddini də dəqiq bilmirik, 9-cu sinifdə oxuya, 14 və ya 17 yaşı ola bilər.

Əgər zərərçəkən tərəfə ağır xəsarət yetirilibsə, bu, həm Azərbaycanda, həm də Rusiyada ağır məsuliyyət yaradan haldır. Amma davanın hansı səbəbdən olduğuna və ağırlıq dərəcəsinə diqqət etmək lazımdır. Bilməliyik ki, bu dava sadə davranış nəticəsində, yoxsa xüsusi qəddarlıqla baş verib.

Elə heab edirəm ki, Rusiya-Azərbaycan fonunda isti münasibətlərin formalaşması zəminində biz milli məsələləri həddindən çox qabartmamalıyıq. Amma təbii ki, haradasa sırf milli mənsubiyyətinə görə soydaşlarımıza qarşı hücumlar varsa, biz ona da laqeyd qalmamalıyıq.

Məktəblilərə şərti cəzanın verilməsi də başadüşülən deyil. Hadisə cərimə ilə yekunlaşa bilərdi. Şərti cəza artıq məhkumluq yaradan haldır. Məhkəmənin yeniyetmələrə qarşı niyə belə davrandığını dəqiq deyə bilmərəm. Hüquq elə bir elmdir ki, hadisəni, ittiham aktının nədən ibarət olduğunu dəqiq bilmədən, yekun nəticəyə görə münasibət bildirmək çətin olur".

**Hüquq üzrə fəlsəfə doktoru Əlövsət Allahverdiyev deyib ki, hadisənin ağırlığına nəzər salmaq lazımdır:** “Elə hallar var ki, törədilən əməlin xarakterindən asılıdır. Fiziki xəsarətin yüngül və ağır olması da bu məsələdə böyük rol oynayır. Hazırda Azərbaycanda elə cinayətlər var ki, ona görə insanları məhkum etmirlər, qolbaq bağlayırlar və həmin şəxsləri nəzarətdə saxlayırlar. İnsanları həbsxanalara göndərməkdənsə, bu formada tərbiyə etmək daha yaxşıdır.

İstənilən halda tərəflərdən birinin Rusiya vətəndaşı və ya rus olması əsas götürülərək bu qərar verilib. Dava azərbaycanlı şagirdlər arasında olsaydı, bəlkə də heç qərar verməyəcəkdilər, məsuliyyət məsələsi olmayacaqdı. Tək Rusiyada deyil, hətta Gürcüstanda da biz bu hallarla qarşılaşırıq. Hər halda, bu məsələdə millətlərə qarşı olan münasibət də öz sözünü deyir. Tək bu deyil, bundan öncə baş verən hadisələr də göstərdi ki, məsələlər var.

Ümumilikdə isə verilən cəza ilə törədilən əməlin xarakterinə baxmaq lazımdır. Rusiyanın cinayət qanunvericiliyində belə bir hal nəzərdə tutulubmu, buna baxmaq lazımdır. Belə bir hal doğrudan da nəzərdə tutulubsa, verilmiş cəza cinayətin xarakterinə uyğundurmu? O halda biz irqçilikdən danışa bilmərik. Yox, qanunvericilikdə nəzərdə tutulmayıbsa, ağır cəza verilibsə, o halda biz ayrı-seçkiliyin olduğunu açıq ifadə edə bilərik".

Qeyd edək ki, şərti azadlıqdan məhrumetmə - cəza hüququnda işlədilən anlayış olub, şəxsin müəyyən müddətə azadlıqdan məhrum edilməsini, lakin bu cəzanın müəyyən şərtlərlə icra edilməməsini ifadə edir.

Sadə dillə desək, hakim şəxsə azadlıqdan məhrumetmə (məsələn, 2 il həbs) cəzası təyin edir, amma onun dərhal həbsxanaya göndərilməsini şərti olaraq təxirə salır.

Bu o deməkdir ki, məhkum müəyyən sınaq (müddət) dövrü ərzində yenidən cinayət törətməməli, qanunlara riayət etməli və məhkəmənin müəyyən etdiyi şərtləri yerinə yetirməlidir (məsələn, qeydiyyata gəlmək, yaşayış yerini dəyişməmək, cəmiyyətə zərərli əməl göstərmək və s.). Əgər bu şərtlərə əməl edərsə, həmin müddət bitdikdən sonra cəza icra olunmuş sayılır və şəxs həbsə düşmür. Amma əgər yenidən cinayət törədərsə və ya şərtləri pozarsa, məhkəmə qərarı ilə cəza qüvvəyə minir və şəxs faktiki olaraq həbs edilir.

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

# Göyçədə köç başladı - "azərbaycanlılar gəlir" panikası

## Soydaşlarımızın öz dədə-baba yurdlarına qayıtmaları Ermənistanın da xeyrinədir; sadəcə...

**Erməni mediasının Göyçə mahalından hazırladığı reportaj Azərbaycanın tarixi torpaqlarında real mənzərə ilə tanış olmaq baxımından diqqət çəkir. Publika.az xəbər verir ki, hetq.am saytı Qerqkunik (Göyçə) rayonunun Kaxek kəndindəki vəziyyəti işıqlandırıb.**

2022-ci il sentyabr döyüşlərində nəzarəti bərpa etdiyimiz mövqelər Kaxek kəndi də daxil olmaqla, bölgəni izləmək imkanı yaradır. İkincisi, Kaxek kəndində, ümumilikdə sərhədyanı bölgələrdə erməni əhalisinin sürətlə azalmasıdır.

**Əslən Qərbi Azərbaycandan olan politoloq Əli Orucov** "Yeni Müsavat"a açıqlamasında ermənilərin işğal etdikləri torpaqlarda əbədi qalacaqlarını və həmin ərazilərdən istədikləri kimi istifadə edəcəklərini zənn etdiklərini deyir. Onun sözlərinə görə, 2020-ci ildə Azərbaycan Ordusu 44 günlük müharibədə onların hesablamalarının yanlış olduğunu isbat edib: "Erməni cəmiyyəti hələ də keçmişin nostalgiyasından tam çıxa bilməyərək, ələ keçirdiklərinin onlara məxsus olmadığı reallığını sinirə bilmir".

**Politoloq onu da qeyd etdi ki, ermənilərdə türk qorxusu, türk düşmənçiliyi, milli, dini ayrı-seçkilik, özlərinə vurğunluq hələ də qalmaqdadır:** "Aşılanan, beyinlərinə yeridilən həmin ideologiya, təbliğat nəticədə kənar güclərin dəstəyi ilə qurduqları Ermənistan adlı dövləti məhvə aparır. Əhali sürətlə azalır, doğum səviyyəsi düşür, dolanışıq və təhlükəsizlik qayğısına qalanlar ölkəni tərk edir, yaşayış məskənləri boşalır. Xüsusən də Azərbaycanla sərhəd bölgələrdə yaşayan ermənilər digər yerlərə daha çox üz tuturlar".

**Politoloqun fikrincə, Ermənistan yekun sülh sazişinin imzalanması üçün son əngəli aşmalı, öz konstitusiyasının bəzi mürtəce müddəalarını dəyişməli və xalqı bundan daha çox Ermənistanın bəhrələnəcəyinə inandırmalıdır:** "Azərbaycanın Ermənistana tranzit daşımalarına qoyduğu məhdudiyyətin götürülməsi üçün atılan humanist addıma adekvat cavab verilməlidir. Bu təkcə Paşinyanın təşəkkürü ilə kifayətlənməməli, əməli addımlarda özünü təsdiqləməlidir.

Ermənistandan da tələb olunur ki, oradan deportasiya edilmiş soydaşlarımızın ləyaqətli və təhlükəsiz qayıdışını və yenidən məskunlaşmasını təmin etsin. Belə bir öhdəlik götürsün ki, azərbaycanılıarın erməni cəmiyyətinə reinteqrasiyasında problemlər olmayacaq və onlar heç bir milli, dini ayrı-seçkiliyə məruz qalmayacaqlar, bərabərhüquqlu olacaqlar".

**Müsahibimizin sözlərinə görə, azərbaycanlıların öz torpaqlarına qayıtması Ermənistan üçün müsbət nəticələr doğuracaq:** "İlk növbədə, bu, Ermənistanın iqtisadiyyatına güclü təsir göstərəcək, xüsusən də kənd təsərrüfatının, ticarətin canlanmasına gətirib çıxaracaq. İnteqrasiyanın tempinə olumlu təsir göstərir. Digər tərəfdən, bu, Ermənistanın təhlükəsizliyi üçün da önəm daşıyardı. Orada yenidən məskunlaşacaq qərbi azərbaycanlılar regionun güclü dövlətləri olan və şərtləri diqtə edən Azərbaycan və Türkiyə ilə bağların qurulmasına və möhkəmlənməsinə stimul verəcək faktora çevriləcək, əlverişli ortam yaradacaq. Ermənilər bu müsbət tendensiyaları görəndən və həyatlarında hiss etdikdən sonra xaricə miqrasiya da azalacaq ki, bu da Ermənistanın demoqrafik vəziyyətinin sabitləşməsi üçün vacib amildir. İrəvanın xarici ölkələrdən, əsasən də Rusiyadan asılılğı minumuma enəcək. Moskva həmişə erməniləri türklərin və azərbaycanlıların onları qırıb məhv edəcəyi ilə qorxudurdu və yaratdığı həmin xofla da özündən asılı vəziyyətə salırdı. Qərbi azərbaycanlıların öz yurd-yuvalarında yenidən məskunlaşması Kremlin əlindən həmin "qorxu aləti"ni də alacaq. Ermənistan və ermənilər Türkiyə və Azərbaycan üzərindən xarici aləmə,



xarici bazarlara maneəsiz və əlverişi çıxış əldə edəcəklər. Təhlükəsizlik qarantiyasını da Qərb paytaxtlarında və Moskvada ağır şərtlər altında deyil, Bakı və Ankaranın əməkdaşlığa və qonşuluğa əsaslanan təminatı ilə alacaq. İstənilən halda qərbi azərbaycanılar öz ata-baba yurdlarına qayıdacaqlar. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, qərbi azərbaycanlılar öz torpqlarına minik avtomobillərində qayıdacaq. Fikrimcə, tankların üzərində qayıtmaq da gündəlikdən çıxmayıb. Bu, Ermənistanın davranışlarından və atacağı addımlardan, yürüdəcəyi siyasətdən bilavasitə asılı olacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Bakıda hərbi paradın aparıcısı kim olsun? - təklif və mübahisə

**Məlum olduğu kimi, gələn ayın 8-də Bakıda 44 günlük Vətən müharibəsindəki tarixi qələbənin 5-ci ildönümü münasibətilə təntənəli Zəfər paradı keçiriləcək. Hələ tədbirə bir ay qalmış sosial şəbəkələrdə paradla bağlı müzakirələr başlayıb. Yəni "Paradın aparıcısı kim olmalıdır?" sualı ətrafında cəmiyyət iki yerə bölünüb.**

Xatırladaq ki, indiyədək keçirilən hərbi paradlarda mikrofon arxasında Abdulla Qurbani dayanıb. Onun səsi illərdir dövlət tədbirlərinin, rəsmi mərasimlərin ayrılmaz hissəsi kimi tanınır. Lakin bu dəfə çoxları hesab edir ki, artıq həmin ənənə dəyişməlidir. Xüsusilə gənc izləyicilər bildirirlər ki, Zəfər paradı sıradan bir rəsmi mərasim deyil, xalqın ruhunu, döyüş əzmini, qələbə sevincini əks etdirən simvolik hadisədir.

İstifadəçilərin əksəriyyəti təklif edir ki, bu dəfə paradda Şəmistan Əlizamanlı səhnəyə çıxmalıdır. Onların fikrincə, məhz Şəmistan Əlizamanlının səsi Azərbaycan əsgərinin döyüş ruhu ilə birləşib - "Qalx ayağa, Azərbaycan!", "Əsgər marşı", "Ana yurdum" kimi mahnılarla bir nəsil böyüyüb.

Təbii ki, bu təkliflər birmənalı qarşılanmayıb. Bir qrup bildirir ki, Abdulla Qurbani artıq bu sahənin peşəkarıdır və hərbi paradın texniki tələblərini, ritmini, protokol qaydalarını mükəmməl bilir.



Şəmistan Əlizamanlı

Beləliklə, Zəfər paradı yaxınlaşdıqca "səhnədə kim danışacaq - Qurbani, yoxsa Əlizamanlı?" sualı ətrafında gərgin müzakirələr davam edir. Sosial şəbəkələrdəki tendensiya isə artıq aydındır: cəmiyyət bu dəfə səsi hərbi ruhla birləşən, xalqın sevdiyi Şəmistan Əlizamanlını görmək istəyir. Qeyd olunur ki, paradda aparıcılığı öz əzəmətli səsi ilə Şəmistan Əlizamanlı aparsa, parad daha möhtəşəm təsir bağışlayar.

**Məsələ ilə bağlı hərbi ekspert Emin Həsənli "Yeni Müsavat"a açıqlamasında bildirib:** "Məlum olduğu kimi, parad birbaşa Ali Baş Komandanın rəhbərliyi altında keçirilir. Əlbəttə, insanların arzu və istəkləri başadüşüləndir. Hər bir şəxsin, o cümlədən hərbi ekspertlərin, ehtiyatda olan zabitlərin, qazilərin bu barədə fikrini bildirməsi tamamilə normaldır. Amma sonda, təbii ki, qərarı bu məsələyə cavabdeh olan qurumlar və şəxslər verəcəklər.

O ki qaldı mənim şəxsi fikrimə, təbii ki, mən Şəmistan Əlizamanlının aparıcı olmasını istərdim. Şəmistan həm I, həm də II Qarabağ müharibəsində xidmətlər göstərib, bir çox tədbirləri aparıb və iştirak edib. Kifayət qədər peşəkardır və biz onun da bu paradda iştirakını arzulayırıq. Amma bir daha qeyd edirəm ki, yekun qərar parad rəhbərliyinə məxsusdur".

**Qarabağ qazisi, Qaziler.az saytının baş redaktoru Rey Kərimoğlu bildirib ki, hər dəfə parad günü yaxınlaşanda aparıcının kim olacağı ilə bağlı cəmiyyətdə ciddi müzakirələr başlayır:** "İndiyə qədər həmişə Ramiz Mehdiyevin təşəbbüsü ilə paradda aparıcılıq onun yerlisi Abdulla Qurbaniyə həvalə olunub. Mənim Abdulla Qurbani ilə şəxsi münasibətim yoxdur, ona düşmən də deyiləm. Sadəcə, onun səsi parad üçün deyil. Ermənilər də bunu lağa qoyur, paraddan onun səsi ilə olan hissələri paylaşaraq gülürlər.

Ali Baş Komandanımız böyük müharibənin qalib sərkərdəsidir, amma indi hər işi də o görməli deyil ki. Bu işlə məşğul olanlar aparıcı məsələsini ciddi şəkildə nəzərə almalıdırlar. Təəssüf ki, illərdir bu çağırışlara qulaq asmırlar.

Biz Şəmistan Əlizamanlını çox yaxşı tanıyırıq və bilirik ki, əgər paradı o apararsa, tədbir tam fərqli, möhtəşəm bir səviyyədə keçəcək. Onun səsi, xarizması, zabit kimi davranışı, milli ruhu tam fərqlidir. "Cənab leytenant" mahnısını onun səsi ilə dinləyib yüzlərlə azərbaycanlı gənc zabit, hərbçi olmağa qərar verib. Onların arasında bu gün generallar, polkovniklər, milli qəhrəmanlar, Vətən müharibəsi qəhrəmanları var. Elə bir insan niyə paradda aparıcı olmasın?!

Şəxsən mən çox istərdim ki, builki paradın möhtəşəmliyinə Şəmistan Əlizamanlının səsi daha bir zirvə qatını əlavə etsin. Bu işlə məşğul olan insanlara müraciət edirəm: qoyun, paradı Şəmistan Əlizamanlı aparsın!"



**Məsələ ilə bağlı Şəmistan Əlizamanlının da mövqeyini öyrəndik. O, hələ ki paradda aparıcı olmağı ilə bağlı heç bir təklif almadığını dedi:** "Əlbəttə, əgər belə bir təklif olsa, böyük məmnuniyyətlə o paradı hərbi diktor kimi aparardım. Bu, mənim üçün böyük fəxr olardı. Amma hesab edirəm ki, burada əsas məsələ paradın keçirilməsidir. Ordumuz möhtəşəm bir qələbə qazanıb. Bu Qələbə paradı xalqımız üçün böyük sevincdir, şəhidlərimizin də ruhu şad olardı. Bu, dünya miqyasında analoqu olmayan bir qələbədir. Cəmi 44 gün ərzində ordumuz işğal altında olan torpaqlarımızı azad edib. Bir daha qeyd edirəm ki, əsas odur parad keçirilsin; aparıcısının kim olmasından asılı olmayaraq.

Mən 1992-ci ildə Müdafiə Nazirliyində hərbi diktor fəaliyyətə başlamışam. O illərdən yaddaşlarda qalmışam. Hər axşam AzTV və dövlət radiosu vasitəsilə cəbhə bölgəsindəki vəziyyəti xalqa çatdırırdım. O vaxt özəl televiziyalar yox idi, yalnız bir televiziya vasitəsilə məlumat verilirdi. Yəni xalqın yaddaşında mən məhz o illərin hərbi diktoru kimi qalmışam.

1993-cü ildən isə hərbi mahnılar yazmağa başladım. İlk olaraq "İgid əsgər, möhkəm dayan" mahnısını ifa etdim. O dövrdə belə mahnılara böyük ehtiyac var idi, çünki biz yeni müstəqil dövlət olmuşduq və ordunu ruhlandıracaq əsərlər yox idi. Hərbi mahnılar orduya hava-su kimi lazım idi və bu iş mənim bəxtimə, qismətimə düşdü. "İgid əsgər, möhkəm dayan" mahnısı çox böyük rezonans doğurdu, mətbuat bundan yazdı, xalqımız da sevinclə qarşıladı.

Sonrakı illərdə yeni mahnılar yazmağa davam etdim - "Cənab leytenant", "Əsgər, Vətən əmanəti", "Birinci batalyon", "Qalx ayağa, Azərbaycan" və digər mahnılar xalqın yaddaşında dərin iz qoydu. Mənim hərbi diktor kimi fəaliyyətim, həm də bu mahnılar vasitəsilə orduya mənəvi dəstəyim yaddaşlarda qalmaqdadır.

Yəqin ki, insanlarımız da bütün bunları nəzərə alaraq, mənim paradın aparıcısı olmağımı arzulayırlar. Sağ olsunlar ki, məni yada salırlar".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**




## Fransada yeni muzey oğurluğu - iki günə 88 milyon avroluq qarət

**Fransada yeni oğurluq hadisəsi baş verib. Bu dəfə oğrular Langresdəki Denis Didro Meyson muzeyini hədəf seçiblər.**

“Yeni Müsavat” xarici mediaya istinadla xəbər verir ki, işçilər sınmış qapı və yoxa çıxmış nadir sikkələr olan sındırılmış vitrin aşkarlayıblar.

Yerli hakimiyyət orqanlarının məlumatına görə, muzey işçiləri oktyabrın 20-də səhər saatlarında oğurluq əlamətləri aşkar ediblər. İçində qızıl və gümüş sikkələr olan şüşə vitrin sındırılıb. Oğrular nümayiş olunan kolleksiyanın bir hissəsini oğurlayıblar.

Kolleksiya 1790-1840-cı illərdə zərb edilmiş 1633 gümüş və 319 qızıl sikkədən ibarətdir. Bu dəfinə 2011-ci ildə muzey binasının bərpası zamanı aşkar edilib. Hazırda muzeyin əməkdaşları oğurlanmış eksponatların dəqiq sayını müəyyənləşdirir.

Zallardakı bütün digər əşyalar toxunulmaz qalıb. Polis hadisənin başvermə şəraitini araşdırır və müşahidə kameralarının görüntülərini izləyir.

Lanqresdəki insident Parisdəki Luvrda baş verən səs-küylü soyğundan cəmi 24 saat sonra baş verib. Maskalı basqınçılar imperator kolleksiyasından 9 əşya, o cümlədən Napoleona və onun həyat yoldaşı Jozefinaya məxsus zinət əşyalarını oğurlayıblar. Oğurlanmış əşyaların dəyəri təxminən 88 milyon avro qiymətləndirilir.

❑ **Nigar HƏSƏNLİ, “Yeni Müsavat”**



## Ölkəxarici fırıldaqçılıq əməliyyatları 2 dəfədən çox artıb

**Bu ilin yanvar-iyun aylarında Azərbaycanda ödəniş kartları ilə baş verən fırıldaqçılıq əməliyyatlarının həcmi 1 milyon 391,041 min manat olub.**

“Report” bu barədə Azərbaycan Mərkəzi Bankına (AMB) istinadən xəbər verir.

Məlumata görə, bunun 775,027 min manatı kartlarla ölkədaxili fırıldaqçılıq əməliyyatlarının, 616,014 min manatı isə kartlarla ölkəxarici fırıldaqçılıq əməliyyatlarının payına düşüb.

I yarımildə bank kartları ilə fırıldaqçılıq hallarının sayı 9 988 olub ki, bunun da, 5 612-si I rübdə, 5 368-i II rübdə baş verib. Aprel-iyun aylarında baş verən fırıldaqçılıq hallarının 4 798-i ölkəxarici (I rüblə müqayisədə 32,2 % çox), 570-i isə ölkədaxili (42,5 % az) əməliyyatlar zamanı yaşanıb.

Təkcə bu ilin II rübündə kartlarla ölkədaxili fırıldaqçılıq əməliyyatlarının həcmi 344,083 min manat (I rüblə müqayisədə 20,2 % az), kartlarla ölkəxarici fırıldaqçılıq əməliyyatlarının həcmi isə 430,104 min manat (2,3 dəfə artıb) olub.

# Kremlin “möhtəşəm silahları” - adları var, özləri görünmür

**Rusiyanın təbliğat aparatında yeni ideya doğulub - ölkənin imicini “raketlərlə və silahlarla” tanıtmaq. “Bir ölkənin raketləri yaxşıdırsa, deməli, konfetləri də yaxşıdır”, - deyə “Birinci kanal”ın baş direktoru Konstantin Ernst bəyan edib. O, “Oreşnik” raketini və guya “dünyanın ən yaxşı qırıcısı” olan "Su-57" təyyarəsini “Rusiyanın qürur simvolu” adlandırıb.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, müstəqil hərbi ekspertlər bu “qürur mövzularının” əslində anekdot səviyyəsində olduğunu bildirirlər.

### “Orejnik” raketi

Bu raket kompleksi hələ heç vaxt ictimaiyyətə göstərilməyib. Ernst “ixrac üçün sərgi modeli”ndən danışsa da, Müdafiə Nazirliyinin məlumatına görə, “Oreşnik” yalnız bir dəfə - 2023-cü ilin noyabrında Dnepr şəhərindəki “Yujmaş” zavoduna qarşı istifadə olunub. Raketləri Belarus ərazisində yerləşdirmək planlaşdırılır, lakin Lukaşenkonun kabinetində jurnalistlərin gördüyü “modelin” belə orijinal olub-olmadığı bəlli deyil.

### T-14 “Armata” tankı

İlk dəfə 2015-ci ildə Qələbə paradında nümayiş etdirilib. Aradan 10 il keçsə də, orduda geniş tətbiqinə başlanmayıb və Ukrayna müharibəsində iştirak etmir. “Rostex” rəhbəri Sergey Çemezov bunu tankın “çox bahalı olması” ilə izah edib. Müdafiə Nazirliyi isə cəbhəyə hələ də 1950-ci illərin tanklarını göndərir.

### RS-28 “Sarmat” strateji raket kompleksi

Putin 2018-ci ilin martında bu raketi “qeyri-məhdud uçuş məsafəsi olan” silah kimi təqdim etmişdi. Amma OSINT-analitiklərin məlumatına görə, 5 sınaq buraxılışından yalnız biri uğurlu olub, sonuncu isə raketin uçuşa qalxmadan şaxtada partlamasıyla nəticələnib.

### “Poseydon” nüvə torpedosu

Dmitri Kiselov Britaniyanı bu torpeda ilə "batırmaqla" hədələyirdi. 2018-ci ildə elan olunan silah hələ silahlanmaya qəbul edilməyib. Hazırda yalnız bir sınaq sualtı qayığı - “Belqorod” mövcuddur, qalan daşıyıcılar tikilməkdədir.



### Su-75 “Checkmate” qırıcısı

Bu təyyarənin yalnız maketi 2021-ci ildə MAKS sərgisində göstərilib. “İxrac üçün” nəzərdə tutulsa da, heç bir ölkə maraq göstərməyib. İlk uçuş 2023-cü ildə planlaşdırılmışdı, amma hələ də baş tutmayıb.

### “Burevestnik” nüvə mühərrikli raketi

Putin bu layihəni də 2018-ci ildə elan etmişdi. Nuclear Threat Initiative təşkilatının məlumatına görə, 2019-cu ilə qədər 13 sınaq həyata keçirilib, hamısı uğursuz olub. 2019-cu ilin avqustunda batmış raketi sudan çıxarmağa cəhd zamanı partlayış və radiasiya sızması baş verib, “Rosatom”un 5 əməkdaşı həlak olub.

### “Su-57" qırıcısı

Yeganə yeni model kimi orduda cüzi miqdarda mövcuddur. 2024-cü ilin sonuna qədər cəmi 30 ədəd istehsal edilib, onların üçdə biri sınaq nümunələridir. Müdafiə naziri Sergey Şoyqu ""Su-57" artıq döyüşlərdə istifadə olunur” deyib, amma Müdafiə Nazirliyinin gündəlik hesabatlarında bunun heç bir izi yoxdur. 2018-ci ildə Hindistan bu layihədən imtina etmişdi, çünki təyyarə “5-ci nəsil döyüş standartlarına cavab vermirdi.”

Beləliklə, Rusiyanın “qürur duyduğu silahlar”ın əksəriyyəti ya kağız üzərində mövcuddur, ya da işlək vəziyyətə gətirilməyib. Propaganda isə onları hələ də “ölkənin simvolu” kimi təqdim etməyə çalışır.

❑ **Musavat.com**

# Sumqayıtda gimnaziya şagirdləri sinifsiz qalıb - dərslər emalatxanada keçirilir



**Sumqayıt şəhərində yerləşən Təbiət Elmləri Təmayüllü Gimnaziyanın şagirdləri hazırda sinif otaqlarından məhrum vəziyyətdədirlər. “Yeni Müsavat”a müraciət edən valideynlər bildiriblər ki, bir neçə həftə əvvəl təhsil ocağında qəza baş verib və bundan sonra məktəbin dərhal təmirə bağlandığı açıqlanıb.**

Valideynlərin sözlərinə görə, məktəbin bağlanmasından iki həftə keçsə də, gimnaziyanın şagirdləri üçün uyğun tədris binası hələ də tapılmayıb: “Şagirdlərin təhlükəsizliyi üçün köçürülmə zəruri idi, amma indi uşaqlarımız dərsə haraya gedəcəyini bilmir. Sanki Sumqayıtda məktəb yoxdur. Nəticədə gimnaziyanın şagirdlərini İstedad Liseyinə göndəriblər. Lakin oradakı şərait gimnaziyanın özündən də pisdir”.

**Məlumatda qeyd olunur ki, gimnaziyanın köçürüldüyü binanın köhnə korpusunda dərs keçmək həm müəllimlər, həm də uşaqlar üçün ciddi narahatlıq doğurur:** “Otaqlarda nəmişlikdən nəfəs almaq olmur, havası ağırdır, otaqları iy basıb. Hətta şagirdlər dünən ayaqyoluna gedəndə qapını tapa bilməyiblər. Gimnaziyanın 10 və 11-ci sinifləri isə məktəbin emalatxanasında dərs keçirlər”.

Valideynlər bildirirlər ki, ölkənin ən yüksək nəticə göstərən təhsil müəssisələrindən biri olan Sumqayıt Təbiət Elmləri Təmayüllü Gimnaziyanın bu vəziyyətə düşməsi qəbuledilməzdir: “Bu məktəb həm buraxılış imtahanlarında, həm də ali məktəblərə qəbulda nəticələrinə görə lider təhsil ocaqlarındandır. Amma indi şagird sıxlığı o qədər artıb ki, övladlarımız dərsdə oturmağa yer tapa bilmir”.

**Müraciət edən valideynlər təhsil rəhbərliyindən gimnaziya şagirdlərinin normal şəraitdə təhsil alması üçün təcili addımlar atılması, məktəb üçün uyğun və sağlam tədris mühiti təmin olunmasını tələb edirlər.**

“Bizim övladlarımız bu gimnaziyaya yüksək balla qəbul olunublar. Onların sağlamlığı, təhsil mühiti və motivasiyası dövlət səviyyəsində qorunmalıdır”, - deyə valideynlər vurğulayıblar.

Məsələ ilə bağlı Abşeron-Xızı Regional Təhsil İdarəsi ilə əlaqə saxladıq. İdarədən bildirildi ki, araşdırma aparıb ətraflı məlumat veriləcək.

❑ **Şahanə RƏHİMLİ, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 192 (8802) 23 oktyabr 2025

# Sensasiya: spirt qadağan edilir - xərçəng riski, hamiləliyə təhlükə...

## Onkoloqdan SOS! “Etil spirti normadan artıq istifadə olunanda DNT-yə zərər verir və xərçəng yaradır”

**Avropa Kimya Agentliyi (ECHA) etanolun (etil spirti və ya adi spirt - red.) kanserogen kimi təsnif edilməsini nəzərdən keçirir. Bu da onun səhiyyə müəssisələrində istifadəsinin qadağan edilməsinə səbəb ola bilər.**

“Yeni Müsavat” xəbər verir ki, bu barədə “Financial Times” (FT) məlumat yayıb.

Məlumata görə, oktyabrın 10-da agentliyin işçi qruplarından biri daxili tövsiyə üçün etil spirtini xərçəng və hamiləlik zamanı ağırlaşma riskini artıran zəhərli maddə qismində qeyd edib.

Bildirilir ki, ECHA-nın Aktiv Biosid Maddələr Komitəsi noyabrın 24-dən 27-dək iclas keçirəcək. Məhz o vaxt agentlik etanolun insanlar üçün təhlükəli maddə kimi mümkün təsnifatı barədə qərar qəbul edəcək. Daha sonra tövsiyə Avropa Komissiyasına göndəriləcək və yekun qərarı bu instansiya verəcək.




FT əlavə edib ki, alkoqol əsaslı dezinfeksiyaedici maddələr hazırda Avropa İttifaqında da təhlükəsiz vasitələr kimi tanınır və 1990-cı illərdən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Əsas Dərmanlar Siyahısına daxil edilib.

Bəs söhbət tibb müəssisələrində etil spirtinin konkret hansı şəkildə istifadəsindən gedir? Məlumdur ki, spirtdən hazırlanan və daxilə qəbul edilən bir sıra maye preparatlar var. Həmçinin bir çox içkilərin tərkibində yüksək faizdə etil spirti olur. Onlar da xərçəng yaradan təhlükəli vasitələr qrupuna aid edilə, satışı və istifadəsi yasaqlana bilərmi? Spirtli içki və ya onun tibbi tətbiqi xərçəng yaradırmı?

Avropa Kimya Agentliyi bu təsnifatı ilə bəzi beynəlxalq və sənaye qurumları razı deyil. Almaniyanın dərman və tibbi texnologiya birlikləri, həmçinin gigiyena sənayesini təmsil edən təşkilatlar bildirirlər ki, etil spirtinin dezinfeksiyaedici vasitələrdə istifadəsi illərdir təhlükəsiz və effektiv hesab olunur. Onların fikrincə, bu maddə xəstəxanalarda, əməliyyat öncəsi sterilizasiyada, tibbi alətlərin təmizlənməsində və ümumi gigiyena məqsədləri üçün əvəzolunmazdır. Etil spirti bu sahələrdə qısamüddətli və xarici istifadə olunduğu üçün onun xərçəng riski yaratması barədə konkret elmi sübutlar yoxdur. Qurumlar xəbərdarlıq edir ki, bu maddənin qadağan edilməsi halında, effektiv alternativlərin tapılması çətin ola bilər.

Digər tərəfdən, Ümumdünya Səhiyyə Təşkilatı və Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyi artıq etanolun içki şəklində qəbulunu “insanlar üçün kanserogen” kimi təsnif edib. Onların məlumatına görə, spirtli içkilərin tərkibindəki etanol orqanizmdə asetaldehid adlı maddəyə çevrilir ki, bu da hüceyrə DNT-sinə zərər vura və müxtəlif orqanlarda xərçəng riskini artıra bilər. Bu risk xüsusilə ağız boşluğu, boğaz, qida borusu, qaraciyər və döş xərçəngi ilə əlaqələndirilir. Aparılmış elmi tədqiqatlar göstərir ki, spirtin təhlükəsiz miqdarı yoxdur və az miqdarda belə qəbul edildikdə sağlamlığa zərər vura bilər.

Buna baxmayaraq, sənaye mütəxəssisləri hesab edirlər ki, spirtli içkilərdəki etanolun təsiri ilə dezinfeksiya məqsədilə istifadə edilən etanolun təsiri fərqlidir. Onlar bildirirlər ki, birincisi daxilə qəbul olunur və uzunmüddətli təsir göstərir, digəri isə xarici, qısa müddətli istifadə üçündür. Hazırda bu fərqin ECHA tərəfindən nəzərə alınıb-alınmayacağı bəlli deyil.

**Tibb üzrə fəlsəfə doktoru, həkim-onkoloq Fərid Museyibov** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, spirt yalnız tibbi sahədə deyil, eyni zamanda kosmetik vasitələrin və bəzi qida məhsullarının tərkibində də istifadə olunur. Onun sözlərinə görə, burada əsas məsələ spirtin hansı miqdarda və necə istifadə olunmasıdır. Avropa Kimya Agentliyinin açıqlamasında da vurğulanan məqam məhz miqdarla bağlıdır. O qeyd edir ki, spirtin çox miqdarda və nəzarətsiz istifadəsi orqanizmdə zərərli dəyişikliklərə səbəb ola bilər. Onkoloqun izahına görə, xərçəng xəstəliyinin yaranmasına səbəb olan amillər çoxdur. Bu amillərdən biri də spirtin yüksək dozada istifadəsi nəticəsində DNT-yə vurulan zərərdir: “DNT zədələndikdə, hüceyrələrin normal fəaliyyəti pozulur. Normal hüceyrə böyüyür, bölünür və müəyyən müddətdən sonra məhv olur. Lakin xərçəng hüceyrələri bu təbii prosesi pozur, nəzarətsiz şəkildə böyüyür və çoxalır. Bu prosesin başlanmasında DNT-nin funksiyasının pozulması əsas rol oynayır. Etil spirtinin dozadan artıq istifadəsi məhz bu cür dəyişikliklərə səbəb olduğu üçün onun istifadəsinin məhdudlaşdırılması ilə bağlı qərar müzakirə olunur. Spirtin minimum səviyyədə istifadəsi həm xərçəng, həm də digər xəstəliklərin qarşısının alınmasında önəmli rol oynaya bilər”.

**Onkoloqun sözlərinə görə, koronavirus pandemiyası zamanı spirtdən həm tibbdə, həm də gündəlik həyatımızda çox istifadə edilirdi:** “Bu dövrdən sonra xərçəng hallarının artması müşahidə olundu”.

**“Bəs bu artımın spirtdən istifadə ilə əlaqəsi ola bilərmi” sualına mütəxəssis belə cavab verib:** “Xərçəngin yaranmasının bir səbəbi də infeksiyanın olmasıdır. Təbii ki, koronavirus da virus mənşəli olduğuna görə Hepatit B, Hepatit C bir çox xərçəng növlərinin yaranmasına gətirib çıxarır. Eyni zamanda koronavirus da virus mənşəli olduğuna görə bu ağciyər toxumasını zədələyir. Əslində burada söhbət daha çox ağciyər xərçənginin yaranmasından gedir”.

Bununla yanaşı, həkim hesab edir ki, xərçəngin yaranmasında ən ciddi rol oynayan amil stressdir. Onun fikrincə, pandemiya dövründə insanlar əsasən virusun özündən yox, onun yaratdığı psixoloji gərginlikdən əziyyət çəkirdilər. Televiziya və sosial şəbəkələrdə virusdan ölən insanların görüntüləri, xəbərlərdə yayılan statistika və qeyri-müəyyənlik insanlarda ciddi stressə səbəb olurdu. Bu vəziyyət yalnız xərçəng deyil, ürək-damar xəstəliklərinin də artmasına gətirib çıxarıb.

**Fərid Museyibovun ümumi qənaətinə görə, hər hansı maddənin zərərli və ya təhlükəli olub-olmaması onun nə qədər və necə istifadə olunmasından asılıdır:** “Spirt düzgün dozada və lazım olan şəraitdə istifadə olunarsa, təhlükə yaratmaya bilər. Lakin uzunmüddətli, dozası aşılmış və məqsəddən kənar istifadə sağlamlıq üçün ciddi risklər doğura bilər”.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**




# Süni intellektə inzibati qadağa - bizdə də olacaqmı?

## Ekspert: “Süni intellektin sərt şəkildə məhdudlaşdırılması doğru yanaşma hesab edilmir”

**Rusiya Dövlət Dumasının iki palatası süni intellektdən (AI) istifadə məsələsinə baxır. Bildirilir ki, hazırlanmış müvafiq qanun layihəsi çərçivəsində müzakirələr süni intellektin yaratdığı məzmunun etiketlənməsinə yönəlib. Lakin gələcəkdə müzakirə genişlənərək sosial və gündəlik həyatdan siyasətə qədər geniş sahələrə təsir edə biləcək süni intellektlə bağlı məhdudiyyətləri əhatə edə bilər.**

Parlamentin aşağı palatasının spikeri Vyaçeslav Volodin deyib ki, süni intellekt təkcə uşaqlar arasında deyil, problemlərin həlli və esselərin yazılması üçün də populyardır. Volodin bildirib ki, çox vaxt realdan fərqlənməyən müxtəlif məzmun növlərinin - fotoşəkillərin, videoların və mətnlərin yaradılmasında süni intellektdən aktiv istifadə ilə bağlı artıq çoxlu şikayətlər daxil olur.

“Bundan başqa, süni intellekt tərəfindən yaradılan məhsullar bəzən qeyri-qanuni məqsədlər üçün, eləcə də insanları çaşdırmaq üçün istifadə olunur”, - spiker bloq yazısında izahat verib.

**Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov “Yeni Müsavat”a mövzunu belə şərh edib:** “Azərbaycanda süni intellektin tətbiqi və idarə olunması istiqamətində proseslər mərhələli şəkildə həyata keçirilir. Hazırda süni intellektin istifadəsinin məhdudlaşdırılması və ya daraldılması ilə bağlı konkret qanunvericilik təşəbbüsü yoxdur. Lakin bu sahədə normativ-hüquqi çərçivənin formalaşdırılması istiqamətində mühüm addımlar atılır.

2025-ci ildə təsdiqlənmiş “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası” rəqəmsallaşma prosesini vahid strateji istiqamətə yönəldib. Bu sənəd rəqəmsal idarəçiliyin təkmilləşdirilməsi, süni intellektin etik və təhlükəsiz tətbiqi, rəqəmsal hüquqların qorunması kimi məqsədləri özündə birləşdirir. Konsepsiya süni intellektin dövlət idarəçiliyində, iqtisadiyyatda və sosial sferada istifadəsinə şərait yaradan əsas sənədlərdən biridir.

Bununla yanaşı, hazırlanmış “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası” süni intellekt texnologiyalarının inkişafını tənzimləyən ilk milli sənəddir. Strategiyada əsas məqsəd texnologiyanın təhlükəsiz, məsuliyyətli və etik prinsiplərə əsaslanan şəkildə inkişaf etdirilməsidir. Burada dövlət və özəl sektor əməkdaşlığı, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi və süni intellekt ekosisteminin formalaşdırılması prioritet istiqamətlər kimi müəyyən edilib.

Belə bir şəraitdə süni intellektin sərt şəkildə məhdudlaşdırılması doğru yanaşma hesab edilmir. Əksinə, məqsəd tənzimləmə mexanizmlərini gücləndirməklə bu texnologiyanın şəffaf və məsuliyyətli şəkildə inkişafına nail olmaqdır. Çünki süni intellektin innovativ potensialı ölkənin iqtisadi və sosial transformasiyasına ciddi töhfə verir və onun düzgün istiqamətdə idarə olunması gələcək inkişaf üçün əsas şərtlərdəndir".

❑ **Nigar HƏSƏNLİ, “Yeni Müsavat”**

# YENİ MÜSAVAT

## Son səhifə

N 192 (8802) 23 oktyabr 2025

Oktyabr


# Luvrdan oğurluğun vurduğu zərərin məbləği açıqlandı



## Ağrıkəsici dərmanı əvəz edə biləcək bitki

**Çobanyastığının iltihab və mikrob əleyhinə xüsusiyyətləri ağrıkəsicilərin eyni xüsusiyyətləri ilə müqayisə edilə bilər. ABŞ və Yaponiya alimləri belə qənaətə gəliblər. Oxu.Az bildirir ki, bununla bağlı genişmiqyaslı metaanalizin nəticələri "Pharmaceutical Biology" jurnalında dərc olunub. Müəlliflər təsadüfi seçilmiş 11 klinik tədqiqatın məlumatlarını təhlil ediblər ki, bu tədqiqatlarda çobanyastığı əsasında hazırlanan preparatlardan selikli qişaların, ağız boşluğu infeksiyalarının və mədə-bağırsaq traktının iltihabının müalicəsi üçün istifadə edilib. Çobanyastığı ekstraktı ağrıları, şişkinliyi və iltihab əlamətlərini əhəmiyyətli dərəcədə azaldıb, eləcə də toxumaların bərpasını sürətləndirib. Effekt statistik cəhətdən əhəmiyyətli olub və qeyri-steroid iltihab əleyhinə preparatların təsiri ilə müqayisə edilə bilər, lakin onlar üçün xarakterik olan yan təsirlər olmadan.**

Çobanyastığı mukozitin - əsasən kemoterapiya və ya şüa terapiyasından sonra ortaya çıxan ağız boşluğu toxumalarının və boğazın selikli qişasının iltihabının müalicəsində daha çox effektivlik göstərib. Alimlər bitkinin müalicəvi xüsusiyyətlərini onun tərkibindəki aktiv maddələrlə - xüsusən də iltihab əleyhinə sitokinlərin ifrazının qarşısını alan və toxumaların bərpasını stimullaşdıran bisabolol və apigeninlə əlaqələndirirlər.

Tədqiqatçıların fikrincə, çobanyastığı xroniki iltihabın müalicəsində təhlükəsiz və əlçatan alternativ ola bilər, həmçinin profilaktik və kosmetik məhsullarda istifadə edilə bilər.



**"Luvr muzeyinin qarət edilməsindən dəymiş zərər 88 milyon avro məbləğində qiymətləndirilir". Oxu.Az "Agence France-Presse" agentliyinə istinadən xəbər verir ki, bunu Paris prokuroru Lor Beko deyib. Qiymətləndirmə muzeyin özü tərəfindən aparılıb. Qeyd edilir ki, Fransa muzeydən oğurlanmış cəvahiratlar üçün ödəniş ala bilməyəcək, çünki onlar sığortalanmayıb.**

# Evlilik təklifi edən kişini sevgilisi silləladi



**Türkiyənin Mersin şəhərində qeyri-adi evlilik təklifi cəhdinə şahidlik edilib. Beş ildir münasibətdə olan gənc, sevgilisinə unudulmaz təklif hazırlamaq istəyib.**

Milli.Az Türkiyə mətbuatına istinadən xəbər verir ki, o, dostlarının köməyi ilə maraqlı, lakin riskli bir plan qurub. Süni qəza səhnəsi yaradaraq sevgilisini qorxutmaqla evlilik təklifi etməyi planlaşdırıb.

Gənc yol kənarında motosikletini yerə salıb, üstünə qəzet örtərək "qəzaya düşmüş" kimi davranıb.

Sevgilisi "hadisə" barədə xəbər aldıqda dərhal hadisə yerinə gəlib və sevgilisinin bu vəziyyətdə olduğunu görüb göz yaşlarına boğulub. Lakin elə bu anda gənc qəfildən yerindən qalxaraq cibindən üzük çıxarıb evlilik təklifi edib.

Hadisənin bu cür gedişi qızı daha da əsəbiləşdirib. O, gözlənilməz təklifə sərt reaksiya verərək, sevgilisinə bir şillə vurub, hadisə yerindən uzaqlaşıb.

Sosial şəbəkələrdə yayılan video izləyicilər arasında geniş müzakirə doğurub. Bəziləri gəncin planını "romantik, amma uğursuz", digərləri isə "yersiz zarafat" kimi dəyərləndiriblər.



## Misirdə turist 4000 illik piramidanın içərisinə düşdü

**İspaniyalı turist Misirdə Firon Snofreyin piramidasının içərisinə düşüb. Qadın sürüşərək təxminən 80 metr hündürlükdən yıxılıb və ehtimal ki, ayağı sınıb. Zərərçəkənə ilkin tibbi yardım piramidanın daxilində göstərilib. Xilasedicilər qadını piramidanın içərisindən çıxarmaq üçün bir neçə saat sərf ediblər.**



## İslandiyada ilk dəfə ağcaqanadlar görünüb

**İslandiyada ilk dəfə ağcaqanadlar aşkarlanıb. Bu barədə məlumatı entomoloq Byörn Hyaltasona istinadla RUV teleradioşirkəti yayıb. Entomoloq deyib: "Oktyabrın 16-da axşam saatlarında qəribə milçək gördüm. Məndə dərhal onun nə olacağına dair şübhə yarandı. Tez onu götürdüm".**

İslandiya Təbiət Tarixi İnstitutunun professoru Mattias Alfredson Byörnun üç ağcaqanad aşkarladığını təsdiqləyib. O bildirib ki, bunlar soyuğa güclü davamlılığı ilə seçilən "Culiseta annulata" növünə aid ağcaqanadlardır.

## Bunları bilirsinizmi?

* Təxminən Yer kürəsinin 70%-i su ilə örtülüdür. Bundan yalnız 1%-i içməli su kimi yararlıdır;
* Televiziya ilə ilk hava proqnozu 11 noyabr 1936-cı ildə İngiltərədə verilib;
* 1 damla neft 25 litr suyu yararsız hala salır;
* Orta ölçülü aysberqin çəkisi təxminən 20 milyon tondur;
* Burnu silərkən oradakı təzyiq orta hesabla 8800 paskal olur;
* Sutka ərzində insanın ayağının həcmi 8 faiz dəyişə bilər;
* Dünyada birinci əczəxana Bağdadda açılıb;
* İnsan beyni 20 milyard sinir hüceyrələrindən təşkil olunub və gündə 96 milyon bit informasiya yadda saxlaya bilir. İnsan ölərkən təqribən 150 trilyon bit məlumat xatırlayır;
* İlk metro stansiya 1860-ci ildə Londonda açılıb;
* Ürəyin işləməsini yazan ilk elektrokardioqrafiya cihazını 1903-cü ildə Willem Einthoven icad edib;
* Hərbi salamı sol əllə vermək bütün dünyada qadağandır;
* İndiyə qədər 1 aprel zarafatlarından 1000-ə qədər adam dünyasını dəyişib;
* Hər gün hava yollarından təqribən 10 milyon adam istifadə edir;
* Kəpənəklər dadı ayaqları ilə hiss edir;
* Fil tullana bilməyən yeganə məməlidir.

## "Google" şirkətinin ofisində taxtabiti təşvişi: İşçilər uzaqlaşdırıldılar




**"Google" şirkətinin Nyu-York ofisinin əməkdaşları mümkün taxtabiti hücumu səbəbindən müvəqqəti olaraq məsafədən iş rejiminə keçiblər. Oxu.Az bildirir ki, bu barədə "İndependent" nəşri məlumat verib. Məlumata görə, şirkətin ekologiya, sağlamlığın mühafizəsi və təhlükəsizlik şöbəsinin məktubunda bildirilib ki, dezinfektorlar və xüsusi təlim keçmiş it böcəklərin mövcudluğuna dair inandırıcı əlamətlər aşkar edib.**

Yoluxmanın Çelsi rayonunda yerləşən kampusdakı böyük yumşaq oyuncaqlardan qaynaqlandığı ehtimal edilir. Lakin hələ ki bununla bağlı rəsmi təsdiq yoxdur. Məktubda işçilərdən xahiş edilib ki, binalar təmizlənib qurtarmayana qədər ofisə gəlməsinlər. Buna baxmayaraq, bəzi əməkdaşlar yenə də işə çıxıblar.

"Google" həmçinin ehtiyat tədbiri olaraq Nyu-Yorkun digər ərazilərində də əlavə yoxlamalara başlayıb. İşçilərdən həm ofisdə, həm də evdə istənilən dişləmə və ya taxtabiti əlamətləri barədə məlumat verməlari, lazım gələrsə, peşəkar dezinsektorlara müraciət etmələri xahiş edilib.

Mütəxəssislər qeyd edirlər ki, yataq taxtabitilərini məhv etmək olduqca çətindir. Böcəklər sürətlə çoxalır və adi insektisidlərə qarşı dayanıqlıdırlar. Onlar geyim, baqaj və şəxsi əşyalar vasitəsilə yayıla bilərlər ki, bu da hətta təmizlənmədən sonra belə təkrar infeksiya riskini artırır.

Qeyd edək ki, "Google" ofislərində oxşar insident 2010-cu ildə də baş vermişdi. O zaman Doqquzuncu avenyu küçəsindəki binada taxtabitiləri aşkarlanmışdı.

## Qoxubilmə hissinin itməsi ciddi xəstəlik xəbərçisidir

**Mütəxəssislər xəbərdarlıq edirlər ki, qoxubilmə hissinin itməsi bəzən sadəcə soyuqdəymə və ya allergiya ilə bağlı deyil, ciddi xəstəliklərin və hətta ölüm riskinin xəbərçisi ola bilər. Milli.Az xəbər verir ki, tədqiqatlara əsasən, qoxu duyğusunun zəifləməsi və ya tam itməsi Alzheimer, Parkinson kimi neyrodegenerativ xəstəliklərin erkən əlamətlərindən biridir. Bundan əlavə, bu hal ürək-damar xəstəlikləri və immun sisteminin zəifləməsi ilə də əlaqələndirilir.**

Alimlər bildirirlər ki, xüsusən yaşlı insanlarda qoxu itkisinin qəfil baş verməsi, orqanizmdə ciddi dəyişikliklərin başladığını göstərə bilər.

Mütəxəssislər xəbərdarlıq edir: əgər uzunmüddətli qoxu itkisi yaşayırsınızsa, həkimə müraciət etməyi gecikdirməyin - bu, bədənin göndərdiyi həyati bir siqnal ola bilər.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500